RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 149 (10169) 20 avqust 2026-cı il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR




# Sənaye zonaları qeyri-neft sektorunun inkişafında irəli çıxır

Ölkəmizdə sənaye parklarının, sənaye məhəllələrinin və aqroparkların idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı Prezident İlham Əliyevin 22 yanvar 2021-ci il tarixli fərmanına əsasən, İqtisadi Zonaların İnkişafı Agentliyi yaradılmışdır. Agentliyin yaradılmasının əsas məqsədi sənaye parklarının (Balaxanı Sənaye Parkı istisna olmaqla), sənaye məhəllələrinin (Naxçıvan Muxtar Respublikasında yaradılan sənaye məhəllələri istisna olmaqla) və aqroparkların fəaliyyətinin təşkili, onların idarə olunması və inkişafı ilə bağlı tədbirlər hazırlamaq, icrasını təmin etmək, o cümlədən bu istiqamətdə göstərilən dövlət dəstəyi tədbirlərini həyata keçirməkdir.

Xəbər verildiyi kimi, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 11-də Naxçıvana səfər çərçivəsində buradakı sənaye parkının təməlqoyma mərasimində də iştirak ediblər. Bu sənaye parkı dövlətimizin başçısının 2024-cü ildə imzaladığı fərmanla yaradılıb.

Beləliklə, indi fəaliyyət göstərən Sumqayıt, Mingəçevir, Qaradağ, Pirallahı, Ağdam, Hacıqabul, "Araz Vadisi İqtisadi Zonası" və Balaxanı sənaye parkları sırasına daha biri daxil oldu. Bundan başqa, Gəncə şəhərinin və Şəmkir rayonunun inzibati ərazilərində yaradılacaq Qərb Sənaye Parkında infrastrukturun qurulması üçün texniki şərtlərin alınması prosesi aparılır.

Naxçıvan Sənaye Parkından söz düşmüşkən qeyd edək ki, onun fəaliyyətinin təşkili məqsədilə ilkin olaraq ərazi istifadəyə yararlı vəziyyətə gətiriləcək. Növbəti mərhələdə isə xarici və daxili infrastrukturun, o cümlədən elektrik və istilik enerjisi, qaz, su, rabitə, nəqliyyat, istehsal, inzibati, sosial və digər obyektlərin yaradılması nəzərdə tutulur.

Naxçıvan şəhərinin cənub-qərb hissəsində, Naxçıvan-Sədərək avtomobil yolunun cənubunda yerləşən bu sənaye parkı 310 hektar ərazini əhatə edəcək. Artıq sənaye parkına potensial sahibkarların cəlb olunması istiqamətində bir sıra layihələr üzrə danışıqlar aparılır.

6

# Regionun gələcək inkişafını müəyyən edən layihə

## Zəngəzur dəhlizi bölgədə davamlı sabitliyin əsas təminatçılarından biri olacaq



Azərbaycan Avrasiyanın mərkəzində yerləşir. Bu əlverişli coğrafi mövqe bizim əsas üstünlüyümüzdür. Zəngəzur dəhlizi isə bu üstünlüyü daha da artırır. Bununla da Şərq ilə Qərbi birləşdirən möhkəm bir körpü yaranır. Orta Asiya ölkələri də məhz bu yoldan fəal şəkildə istifadə edəcək. Nəticədə onların dünya bazarlarına çıxışı xeyli asanlaşacaq. Bu prosesdə Xəzər dənizinin rolu daha da artacaq. Limanlarımız yeni və həcmli yüklərlə dolacaq. Əlbəttə ki, Bakı-Tbilisi-Qars dəmir yolu ilə yeni birləşmə də yaranacaq. Bütün bunlar vahid bir nəqliyyat şəbəkəsinin formalaşması deməkdir. Bu şəbəkə vasitəsilə Avropa ölkələrilə əlaqələr qurulur və Türkiyə bazarlarına çıxış daha da genişlənir.

Bir daha xatırladaq ki, Azərbaycan və Türkiyə arasında mövcud olan strateji əməkdaşlıq sarsılmazdır. Bu dəhliz qardaşlıq münasibətlərimizi daha da möhkəmləndirir. Türk dünyası üçün bu, böyük bir strateji əhəmiyyət daşıyan hadisədir. Orta Asiya ilə Türkiyə arasında birbaşa yolun açılması siyasi və iqtisadi birliyi daha da gücləndirəcək. Layihənin uğuru bölgədə sülhün və əmin-amanlığın təbliğinə xidmət edir.

2

# Ermənistan Azərbaycanla iqtisadi əlaqələri genişləndirmək niyyətindədir

## İki ölkə arasında ticarətin canlanması, enerji sahəsində əməkdaşlıq imkanlarının müzakirəsi regionda sülhün və təhlükəsizliyin möhkəmlənməsinə xidmət edir



3

# Elm və təhsil süni intellektin sürəti ilə ayaqlaşmağa məcburdur

SÍ-in inkişafı dayanmayıb, əksinə, sürətlənir. Həm də maraqlıdır ki, 2025-ci ildə qabaqcıl Sİ modellərinin 90 faizdən çoxunu sənaye şirkətləri hazırlayıb. Bir sıra modellər artıq PhD səviyyəli elm suallarında, multimodal mühakimələrdə, mürəkkəb riyazi məsələlərdə, proqramlaşdırmada insan səviyyəsinə çatır və ya onu üstələyir. Məsələn, SWE-bench Verified proqramlaşdırma benchmarkında nəticələr bir il ərzində təxminən 60 faizdən 100 faizə yaxınlaşıb. Təşkilatların Sİ-dən istifadə səviyyəsi isə 88 faizə çatıb. Universitet tələbələrinin təxminən 80 faizi Generativ Sİ-dən istifadə edir. Beləliklə, Sİ artıq işin, təhsilin və tədqiqatın ümumi infrastrukturuna çevrilir.



ABŞ-Çin Sİ rəqabətində fərq demək olar ki, aradan qaldırılıb. Bu, hesabatın geosiyasi baxımdan ən mühüm nəticələrindən biridir. 2026-cı ilin martına olan məlumata görə, ən qabaqcıl ABŞ modeli Çin modellərindən cəmi 2,7 faiz öndədir. Bununla yanaşı, ABŞ qabaqcıl frontier modellər, yüksək təsirli patentlər, özəl investisiyalar, Sİ startapları kimi sahələrdə üstünlüyə malikdirsə, Çinin üstün olduğu sahələr elmi nəşrlərin sayı, sitatlar, patentlərin ümumi sayı, sənaye robotlarının quraşdırılmasıdır. Yəni artıq "Çin Sİ-də ABŞ-nin arxasınca gəlir" fikri doğru deyil. Rəqabət artıq ikiqütblü xarakter alıb.

5

# Qədim Bakının müasir memarlıq imzaları

2015-ci ildə keçirilən ilk Avropa Oyunlarının möhtəşəm açılış və bağlanış mərasimləri məhz burada baş tutmuş, dünya mətbuatının diqqəti bu məkana yönəlmişdir. 2019-cu ildə UEFA Avropa Liqasının final qarşılaşması və Avro-2020 futbol çempionatının bir neçə qrup və dörddəbir final mərhələsi oyunları da Bakı Olimpiya Stadionunda keçirilmişdir. Həmçinin qlobal iqlim dəyişikliyi ilə mübarizədə dünyanın ən böyük zirvə toplantısı sayılan COP29 beynəlxalq konfransının əsas ünvanı olması arenanın, sadəcə, idman deyil, həm də dünya əhəmiyyətli siyasi, sosial hadisələrin mərkəzi olduğunu göstərir.

Bakı Olimpiya Stadionu Azərbaycanın qonaqpərvərliyini və qlobal arenadakı yüksək nüfuzunu dünyaya nümayiş etdirən müasir bir abidədir. Bu yerdə bir fakt xüsusi qeyd olunmalıdır ki, paytaxtın şəhərsalma tarixində Bakı Olimpiya Stadionunun inşası böyük bir ekoloji və infrastruktur inqilabı idi və o, şəhərin inkişaf istiqamətini kökündən dəyişdirdi. Məlumdur ki, stadion onilliklər ərzində neft və məişət tullantıları ilə çirklənmiş Böyükşor gölünün ərazisində tikilib. Layihə çərçivəsində gölün ətrafı tam təmizlənmiş, ekoloji bərpa işləri aparılmış və ərazi paytaxtın ən gözəl yaşıl zonalarından birinə çevrilmişdir.

Burada yeni şəhər mərkəzi (Şimal-Şərq oxu) də yaradılmışdır. Stadion şəhərin sıx mərkəzini boşaldaraq, inkişafı Heydər



Əliyev prospekti boyunca şimal-şərq istiqamətinə doğru çəkmişdir. Ətrafda yeni nəqliyyat qovşaqları, körpülər və "Koroğlu" metrostansiyasının nəhəng keçid infrastrukturu qurulmuşdur.

Dayanıqlı şəhərsalma platformasına gəldikdə isə, bu idman qurğusunun ərazisi o qədər funksional planlaşdırılıb ki, o, 180-dən çox ölkənin qatıldığı BMT-nin Ümumdünya Şəhərsalma Forumunun (WUF13) əsas platforması kimi də istifadə olundu. Bu, arenanın şəhər içində müstəqil və dayanıqlı bir "ağıllı şəhərcik" funksiyasını yerinə yetirdiyini sübut edir.

4

azerbaijan-news.az

**Azərbaycan və Ukrayna arasında tarixən formalaşmış tərəfdaşlıq və dostluq əlaqələri son dövrlərdə həyata keçirilən önəmli təmaslar və mühüm humanitar təşəbbüslərlə məhsuldar dövrlərindən birini yaşayır. İki ölkənin sıx münasibətlərinin təməlində mədəni, iqtisadi və siyasi əlaqələrlə yanaşı, beynəlxalq hüququn əsas təməli olan ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı məsələlərinə prinsipial yanaşma dayanır.**



# *Bakı-Kiyev əlaqələri:* strateji tərəfdaşlıq və humanitar həmrəylik

Bakı və Kiyev arasında illər ərzində möhkəmlənən bu əməkdaşlıq təkcə ikitərəfli müstəvidə qalmayaraq, regional və beynəlxalq təhlükəsizlik məsələlərini də əhatə edir. Regional çağırışlar fonunda rəsmi Bakı konstruktiv dialoqu, humanitar dəstəyi və siyasi-diplomatik həll yollarını ön plana çəkərək Avropa regionunun təhlükəsizliyinə və böhranların aradan qaldırılmasına ardıcıl töhfələr verməkdədir.

Münasibətlərin praktiki müstəvidə genişlənməsində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun avqustun 6-da Ukraynaya həyata keçirdiyi rəsmi səfər xüsusi əhəmiyyət kəsb edir. Səfər çərçivəsində Ukrayna Prezidenti Volodimir Zelenski tərəfindən qəbul edilən və ukraynalı həmkarı Andrey Sibiqa ilə geniş tərkibli görüşlər keçirən nazir Azərbaycanın strateji yanaşmalarını diqqətə çatdırıb. Görüşlər zamanı C.Bayramov Ukrayna rəhbərliyinə Cənubi Qafqazda münaqişədən sonrakı reallıqlar, sülh gündəliyinin irəlilədilməsi istiqamətində atılan addımlar və Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işləri barədə də ətraflı məlumat verib. Bununla yanaşı, Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki strateji roluna toxunularaq, Ukraynaya qaz ixracı imkanları hərtərəfli nəzərdən keçirilib.

Ukraynanın enerji təhlükəsizliyini təmin etmək üçün iki ölkə arasında əməkdaşlıq potensialı son dərəcə yüksək qiymətləndirilir. Vurğulanır ki, Azərbaycan xüsusilə qış dövründə və təchizatda yaranan fasilələr zamanı vacib təminatçıya çevrilə bilər. Ukrayna alıcı olmaqla bərabər, həm də Mərkəzi və Şərqi Avropaya gələcəkdə Azərbaycan qazının saxlanılması və paylanması üçün regional mərkəz kimi çıxış etmək imkanına malikdir. Trans-Balkan Dəhlizi (Türkiyə, Bolqarıstan, Rumıniya, Moldova və Ukraynadan keçən əsas təbii qaz boru kəməri xətti) ölkələri olan Azərbaycan, Ukrayna və Türkiyə arasında uzunmüddətli müqavilələrin bağlanması və marşrutun həcminin genişləndirilməsi hər iki tərəf üçün böyük iqtisadi dividendlər vəd edir. Ukrayna tərəfi Bakının bu çoxvektorlu xarici siyasətini və prioritetlərini Avropanın ümumi təhlükəsizliyinə mühüm investisiya kimi dəyərləndirir.

İkitərəfli münasibətlərin humanitar və mənəvi müstəvidəki dərinliyini nümayiş etdirən növbəti mühüm hadisə Ukraynanın sabiq prezidenti Viktor Yuşşenkonun avqustun 17-də Bakıya səfəri və Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qəbul edilməsi olub. Görüş zamanı tərəflər 20 ildən artıq davam edən dostluq münasibətlərinə nəzər salaraq, Azərbaycan-Ukrayna əlaqələrinin möhkəmləndirilməsi istiqamətində görülən birgə işləri xatırlayıb və gələcək perspektivlər barədə ətraflı fikir mübadiləsi aparıblar. Səfər çərçivəsində verdiyi bəyanatlarda Viktor Yuşşenko dövlətlərin ərazi bütövlüyünün toxunulmazlığının müasir beynəlxalq təhlükəsizlik sisteminin birnömrəli bəndi olduğunu xüsusi vurğulayıb. Sabiq dövlət başçısının fikrincə, İkinci Dünya müharibəsindən sonra yaranan sərhədlərin toxunulmazlığı prinsipi saxlanılmalıdır və bu məsələdə Azərbaycan ilə Ukraynanın təcrübəsi bütün beynəlxalq ictimaiyyət və BMT üçün mühüm nümunə olmalıdır.

Səfərin önəmli məqamlarından biri Ukraynanın Azərbaycandakı səfiri Yuriy Husyev tərəfindən Prezident İlham Əliyevə "İrpen şəhərinin fəxri vətəndaşı" vəsiqəsinin təqdim olunmasıdır. Səfirin də qeyd etdiyi kimi, bu addım iki ölkə arasındakı güclü tərəfdaşlığın, həmrəyliyin və Azərbaycan dövlətinin İrpen şəhərinin bərpasına göstərdiyi davamlı dəstəyin yüksək qiymətləndirilməsinin bariz təzahürüdür.

Azərbaycan Ukraynanın müharibədən zərər görmüş İrpen şəhərinin yenidən qurulmasında fəal və ardıcıl şəkildə iştirak edir. Şəhərdəki İrpen Humanitar "Linqvist" Liseyi və diaqnostika poliklinikası Azərbaycan tərəfindən artıq tam bərpa olunaraq istifadəyə verilib. Humanitar dəstək proqramının növbəti mərhələsində isə yeni yaşayış binalarının tikintisi, uşaq-gənclər idman məktəbinin, Mərkəzi Mədəniyyət Evinin bərpası və müasir incəsənət mərkəzinin yaradılması nəzərdə tutulur. Bu təşəbbüslər Azərbaycanın sülhsevər və qurucu xarici siyasətinin real əməli nəticələridir.

Mənəvi və ictimai bağların gücləndirilməsi istiqamətində Bakıda "Azərbaycan-Ukrayna" Beynəlxalq Alyansının sədri Elmar Məmmədov ilə Viktor Yuşşenko arasında da mühüm görüş baş tutub. Müzakirələrdə diasporun dəstəklənməsi, xalqlar arasında ənənəvi əlaqələrin möhkəmləndirilməsi, birgə sosial, mədəni, gənclər və təhsil layihələrinin reallaşdırılması xüsusi yer alıb. Viktor Yuşşenko Elmar Məmmədovun iki ölkə arasında dostluğun möhkəmlənməsinə verdiyi çoxillik töhfəni və ictimai diplomatiyanın imkanlarını yüksək qiymətləndirib.

Nəticə etibarı ilə yüksəksəviyyəli diplomatik təmaslar, energetika sahəsindəki strateji planlar, genişmiqyaslı humanitar yardımlar və ictimai diplomatiyanın imkanları Azərbaycan-Ukrayna münasibətlərinin möhkəm əsaslar üzərində qurulduğunu nümayiş etdirir. Rəsmi Bakının nümayiş etdirdiyi konstruktiv mövqe, hüquqi prinsiplərə sədaqət və humanitar dəstək iki ölkə arasındakı dostluq tellərini daha da gücləndirir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Azərbaycan-Ukrayna münasibətlərinin mühüm istiqamətlərindən biri humanitar əməkdaşlıqdır

**Azərbaycan ilə Ukrayna arasında diplomatik münasibətlər müstəqillik illərindən etibarən davamlı inkişaf yolu keçərək bu gün çoxşaxəli əməkdaşlıq xarakteri daşıyır. İki ölkə arasında siyasi dialoqla yanaşı, iqtisadi, enerji, nəqliyyat, humanitar və digər sahələrdə əməkdaşlıq da intensiv şəkildə davam edir. Bu münasibətlərin möhkəm hüquqi bazasını ikitərəfli müqavilələr, müxtəlif sahələr üzrə imzalanmış sənədlər və qarşılıqlı maraqlara əsaslanan əməkdaşlıq mexanizmləri təşkil edir.**



**Milli Məclisin deputatı Vüqar RƏHİMZADƏ** qəzetimizə açıqlamasında deyib ki, Azərbaycan-Ukrayna münasibətləri yalnız siyasi dialoq və humanitar əməkdaşlıqla məhdudlaşmır, eyni zamanda, iqtisadi və energetika sahələrində də yeni məzmun və dinamika qazanır. Bu baxımdan Ukrayna Prezidenti Volodimir Zelenskinin 2026-cı ilin aprelində Azərbaycana rəsmi səfəri zamanı imzalanan sənədlər münasibətlərin hüquqi və institusional bazasının daha da genişləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Xarici işlər naziri Ceyhun Bayramovun bu ay Ukraynaya səfəri isə yüksəksəviyyəli siyasi dialoqun və qarşılıqlı təmasların ardıcıl xarakter daşıdığını göstərir. "Azərbaycan-Ukrayna münasibətlərinin mühüm istiqamətlərindən biri humanitar əməkdaşlıqdır. Xüsusilə Ukraynada müharibənin yaratdığı ağır nəticələr fonunda Azərbaycanın göstərdiyi humanitar dəstək iki ölkə arasında münasibətlərin yalnız siyasi və iqtisadi maraqlarla məhdudlaşmadığını, eyni zamanda həmrəylik və qarşılıqlı dəstək prinsiplərinə söykəndiyini nümayiş etdirir. Azərbaycanın Ukraynaya göstərdiyi humanitar yardım bu münasibətlərin ən önəmli aspektlərindən biridir. Azərbaycan Ukraynaya çoxsaylı generatorlar, transformatorlar, elektrik kabelləri və digər enerji avadanlıqları göndərərək, müharibə nəticəsində zərər görmüş infrastrukturun bərpasına yardım edir. Yardımların davamlı və geniş spektrli olması iki ölkə arasında etimadın və əməkdaşlığın daha da möhkəmlənməsinə səbəb olur. Eyni zamanda ölkəmizin Ukraynanın bərpa və yenidənqurma prosesinə verdiyi töhfələr humanitar siyasətin praktik nümunəsi kimi qiymətləndirilə bilər", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, Azərbaycan-Ukrayna münasibətləri uzun illər ərzində qarşılıqlı hörmət, dostluq və əməkdaşlıq prinsipləri əsasında inkişaf edib. Prezident İlham Əliyevə "İrpen şəhərinin fəxri vətəndaşı" vəsiqəsinin təqdim olunması da bunun göstəricisidir. Bu, Azərbaycanın Ukraynaya göstərdiyi humanitar dəstəyin və çətin günlərdə Ukrayna xalqının yanında olmasının yüksək qiymətləndirilməsinin ifadəsidir. İrpen şəhərinin bu məsələdə xüsusi simvolik əhəmiyyəti var. İrpen müharibədən ciddi zərər görmüş Ukrayna şəhərlərindən biridir. Azərbaycanın İrpenə göstərdiyi dəstək və şəhərin bərpasında iştirak etməsi iki ölkə arasında münasibətlərin konkret nəticələrə çevrilən humanitar əməkdaşlığının göstəricisidir.

V.Rəhimzadə bildirib ki, Azərbaycan dövlətinin yardımı və dəstəyi nəticəsində akademik Zərifə Əliyeva adına 12 saylı İrpen Humanitar "Linqvist" liseyi bərpa edilib: "Azərbaycan hökumətinin yardımı ilə İrpendə hərbi əməliyyatlar zamanı ciddi ziyan dəymiş şəhər poliklinikasının bərpası tez bir zamanda başa çatdırılaraq, Ukrayna dövlətinə təhvil verilib. Bu tibb müəssisəsi Azərbaycan hökumətinin və Ukraynanın enerji sektorunda aparıcı Azərbaycan brendi olan "SOCAR Ukraine" şirkətinin maliyyə dəstəyi ilə təmir edilib. Eyni zamanda obyektin zirzəmisində yeni sığınacaq tikilib. Prezident İlham Əliyevə "İrpen şəhərinin fəxri vətəndaşı" statusunun verilməsi Azərbaycanın Ukraynanın ağır günlərində göstərdiyi dəstəyə verilən yüksək dəyərdir. Azərbaycan öz xarici siyasətində hər zaman sülhün, sabitliyin və humanitar dəyərlərin önəmini vurğulayır. Ukrayna ilə bağlı yanaşmada da bu xətt özünü aydın göstərir".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Ermənistan Azərbaycanla iqtisadi əlaqələri genişləndirmək niyyətindədir

## İki ölkə arasında ticarətin canlanması, enerji sahəsində əməkdaşlıq imkanlarının müzakirəsi regionda sülhün və təhlükəsizliyin möhkəmlənməsinə xidmət edir

**Cənubi Qafqazda formalaşan yeni siyasi və iqtisadi reallıqlar Azərbaycan ilə Ermənistan arasında iqtisadi-ticarət əlaqələrinin canlanmasında da özünü göstərir. Ermənistanın Baş naziri Nikol Paşinyanın jurnalistlərə açıqlamasında iki ölkə arasında qarşılıqlı ticarət üçün real gündəliyin olduğunu bildirməsi bu prosesin praktiki mərhələyə keçməsindən xəbər verir: "Əminəm ki, yaxın gələcəkdə Azərbaycana da ixrac olacaq". Statistik göstəricilər də iqtisadi əlaqələrin dinamikasında nəzərə çarpacaq dönüşün yarandığını təsdiqləyir. 2026-cı ilin ilk yeddi ayı ərzində Azərbaycanın Ermənistana 17 milyon 372,1 min dollar dəyərində məhsul ixrac etməsi iki ölkə arasında ticarət əlaqələrinin bərpası baxımından mühüm göstərici kimi qiymətləndirilir.**




Əlaqələrin ilkin mərhələsində ticarət dövriyyəsinin həcmindən asılı olmayaraq, bu prosesin başlamasının özü Cənubi Qafqazda siyasi dialoqun dərinləşməsinə və sabitliyin möhkəmlənməsinə xidmət edir. Hazırda Azərbaycan tərəfi əsasən neft məhsulları üzrə ixracı reallaşdırsa da, hər iki ölkənin iqtisadi strukturundakı fərqliliklər gələcəkdə ticarət portfelinin əhəmiyyətli dərəcədə şaxələnməsinə geniş imkanlar açır.

Ticarət münasibətlərinin şaxələndirilməsi çərçivəsində tərəflər arasında müxtəlif sahələr nəzərdən keçirilir. Ermənistandan Azərbaycana kənd təsərrüfatı məhsullarının xammal və ya emal olunmuş şəkildə, o cümlədən müxtəlif növ konservləşdirilmiş qida mallarının və balıqçılıq təsərrüfatı məhsullarının ixracı real istiqamətlər sırasındadır. Bununla yanaşı, qiymətli daş-qaş məmulatlarının və xammalın tədarükü də perspektivli sahə kimi dəyərləndirilir. İqtisadi əməkdaşlıq təkcə ənənəvi sektorlarla məhdudlaşmır. Birgə texnoloji layihələrin icrası və innovativ xidmətlərin mübadiləsi də gündəmdədir.

Enerji sektoru da gələcək tərəfdaşlığın ana xətlərindən birini təşkil edə bilər. Nikol Paşinyan vurğulayıb ki, Ermənistanda süni intellekt zavodlarının fəaliyyətə başlaması enerjiyə olan tələbatı kəskin şəkildə artırır: "Belə müəssisələr təsəvvürlərimizi aşan miqyaslarda elektrik enerjisi istehlak edirlər. Enerji strategiyalarımızı yenidən nəzərdən keçirməliyik ki, yeni şəraitə və gözləntilərə uyğun imkanlara malik olaq. Bizim strategiyamız 100 faiz enerji müstəqilliyidir". Baş nazir əlavə edib ki, bu, Ermənistanın beynəlxalq elektrik enerjisi ticarətindən kənarda qalacağı anlamına gəlmir: "Bəzən elektrik enerjisi ixrac edə, bəzən isə idxal edə bilərik. O cümlədən Azərbaycanla da tərəfdaşlıq edə bilərik". Digər tərəfdən, Rusiya qazından asılılığı azaltmaq üçün alternativ təchizatçılardan qazın alınması üzrə danışıqlar aparılır ki, gələcəkdə Azərbaycan qazının TRIPP ("Tramp marşrutu") layihəsi çərçivəsində planlaşdırılan yeni boru kəməri vasitəsilə tədarükü də mümkündür.

Nəqliyyat-kommunikasiya xətlərinin açılması prosesində Zəngəzur dəhlizi (TRIPP) layihəsi xüsusi çəkiyə malikdir. Ermənistan rəhbərliyinin açıqlamasına əsasən, mütəxəssislər 2025-2026-cı illərdə TRIPP layihəsi çərçivəsində reallaşdırılması planlaşdırılan elektrik xətləri, dəmir yolu, boru kəmərləri və digər texniki məsələləri müzakirə etmək üçün Ermənistanda olublar. Eyni zamanda Ermənistan Baş nazirinin müavini Mqer Qriqoryanın ofisindən bildirilib ki, hazırda ABŞ tərəfi ilə birgə layihənin parametrləri, o cümlədən dəmir yolu komponenti üzrə araşdırmalar və hesablamalar aparılır və ilkin variant yaxın vaxtlarda hazır olacaq.

Nəqliyyat kommunikasiyalarının blokdan çıxarılmasının detalları və marşrutlardan qarşılıqlı istifadə şərtləri də fəal müzakirə olunur. Ermənistan parlamentindəki "Vətəndaş Müqaviləsi" partiyasından olan deputat Sərkis Xandanyan da bildirib ki, qarşılıqlılıq prinsipi ilə bağlı gömrük rüsumları və digər ödənişlər müzakirə mərhələsindədir və bu məsələlər nəqliyyat əlaqəsi başladıqda yekun olaraq razılaşdırılacaq.

Təbii ki, bütün bu iqtisadi və logistik layihələrin uğurla reallaşması və regionda uzunmüddətli sülhün bərqərar olması birbaşa hüquqi-siyasi müstəvidəki addımlarla bağlıdır. Ermənistanda yeni konstitusiyanın hazırlanması prosesi bu baxımdan həlledici əhəmiyyət kəsb edir. Hakim "Vətəndaş Müqaviləsi" fraksiyasının deputatı Arusyak Culhakyan bildirib ki, yeni konstitusiyanın preambulasında Azərbaycan və Türkiyəyə qarşı ərazi iddialarını özündə əks etdirən Müstəqillik Bəyannaməsinə heç bir istinad yoxdur. Onun sözlərinə görə, əsas məqsəd dövlətçiliyi gücləndirməkdir. Yekun mətnin ilin sonuna qədər dərc olunması istisna edilmir. Bu hüquqi düzəliş Azərbaycanın yekun sülh sazişinin imzalanması üçün irəli sürdüyü əsas şərtlərdən biri olmaqla, regionda dayanıqlı tərəfdaşlığın və iqtisadi tərəqqinin möhkəm zəminini təşkil edir.

İqtisadi inteqrasiya dərinləşdikcə tərəflər arasında etimad mühiti möhkəmlənəcək və davamlı sülh real müstəviyə keçəcək. Qarşılıqlı ticarət və infrastruktur layihələri ilk başda Ermənistanın özü üçün faydalı olmaqla yanaşı, bütövlükdə regional əməkdaşlığa və təhlükəsizliyə də xidmət edəcək. Nəticədə Cənubi Qafqaz qlobal miqyasda mühüm iqtisadi mərkəzə çevriləcək.

*İ.QOCAYEV,*
*"Azərbaycan"*



2026 Şəhərsalma və Memarlıq İli



# Qədim Bakının müasir memarlıq imzaları

**Paytaxtımızın şəhərsalma məkanı son illər keyfiyyətli bir yeniləşmə dövrünü yaşayır. Tarixi memarlıq inciləri ilə müasir urbanizasiya tendensiyalarının sintezi şəhərin həm estetik görünüşünü, həm də sakinlər üçün funksionallığını tamamilə yeniləyir. Bu baxımdan son onillikdə beynəlxalq miqyaslı mötəbər tədbirlərin, qlobal forumların və möhtəşəm idman yarışlarının ünvanına çevrilən Bakı dünya şəhərləri sırasında özünəməxsus modern siması ilə seçilir.**




Belə bir modernləşmənin və ölkənin idman ambisiyalarının ən bariz və vizual olaraq ən heyranedici simvollarından biri şübhəsiz ki, Bakı Olimpiya Stadionudur. Möhtəşəm layihə Prezident İlham Əliyevin təşəbbüsü və imzaladığı sərəncam əsasında həyata keçirilmişdir. Dövlət başçısının idmanın inkişafına və Bakının qlobal bir mərkəzə çevrilməsinə yönəlmiş strateji baxışının məhsulu olan bu nəhəng tikilinin təməli 2011-ci ildə Prezidentin iştirakı ilə qoyulmuşdur. Layihənin icrası isə fərqli ölkələrin qabaqcıl memarlıq və mühəndislik korpuslarını bir araya gətirmişdir. Tikintinin sifarişçisi və maliyyələşdirici qismində Azərbaycan Respublikası Dövlət Neft Şirkəti çıxış etmiş, baş podratçı Türkiyənin "Tekfen İnşaat" şirkəti olmuşdur. Bu mürəkkəb mühəndislik möcüzəsi qısa müddətdə gerçəkliyə çevrilmişdir. Aktiv tikinti prosesi 2011-2015-ci illəri əhatə etmiş və bina 6 mart 2015-ci ildə rəsmi olaraq istifadəyə verilmişdir.



Böyük Şor gölünün ekoloji cəhətdən bərpa edilmiş ərazisində - Bakının mühüm nəqliyyat qovşaqlarının kəsişməsində ucalan bu nəhəng arena sadəcə bir idman qurğusu deyil. O, Azərbaycanın mühəndislik potensialının, iqtisadi gücünün və gələcəyə yönəlmiş innovativ baxışının memarlıq nümunəsidir. Xaricdən bənzərsiz bir parıltı saçan, daxildə isə on minlərlə insanın coşqusunu eyni anda qəbul edə bilən bu stadion qısa müddət ərzində Bakının vizit kartlarından birinə çevrilərək şəhərin simasına idman çaları qatmışdır.

68 mindən çox tamaşaçı tutumuna malik olan Bakı Olimpiya Stadionu beynəlxalq standartların, xüsusulə UEFA və FİFA-nın ən yüksəkkateqoriyalı tələblərinə tam cavab verən çoxfunksiyalı bir kompleksdir. İnşasında dünyanın ən mütərəqqi tikinti texnologiyalarından və seysmik təhlükəsizlik sistemlərindən istifadə olunmuşdur. Arenanın dam örtüyü xüsusi membran materialla örtülmüşdür ki, bu da gecə saatlarında stadiona möhtəşəm işıqlandırma və vizual şou imkanları verir. Stadionun daxili strukturu atletika yarışları, futbol, konsert və möhtəşəm açılış mərasimləri üçün ideal şəkildə layihələndirilmişdir. Burada yerləşən mətbuat mərkəzləri, VİP lojalar, kafe və restoranlar, eləcə də geniş avtoparkinq sistemi idmançıların və azarkeşlərin maksimal rahatlığını təmin edir.

Açılışı reallaşdığı gündən etibarən bu nəhəng arena bir çox tarixi hadisələrə evsahibliyi etmişdir. 2015-ci ildə keçirilən ilk Avropa Oyunlarının möhtəşəm açılış və bağlanış mərasimləri məhz burada baş tutmuş, dünya mətbuatının diqqəti bu məkana yönəlmişdir. 2019-cu ildə UEFA Avropa Liqasının final qarşılaşması və Avro-2020 futbol çempionatının bir neçə qrup və dörddəbir final mərhələsi oyunları da Bakı Olimpiya Stadionunda keçirilmişdir. Həmçinin qlobal iqlim dəyişikliyi ilə mübarizədə dünyanın ən böyük zirvə toplantısı sayılan COP-29 beynəlxalq konfransının əsas ünvanı olması arenanın sadəcə idman deyil, həm də dünya əhəmiyyətli siyasi, sosial hadisələrin mərkəzi olduğunu göstərir.

Bakı Olimpiya Stadionu Azərbaycanın qonaqpərvərliyini və qlobal arenadakı yüksək nüfuzunu dünyaya nümayiş etdirən müasir bir abidədir. Bu yerdə bir fakt xüsusi qeyd olunmalıdır ki, paytaxtın şəhərsalma tarixində Bakı Olimpiya Stadionunun inşası böyük bir ekoloji və infrastruktur inqilabı idi və o, şəhərin inkişaf istiqamətini kökündən dəyişdirdi. Məlumdur ki, stadion onilliklər ərzində neft və məişət tullantıları ilə çirklənmiş Böyükşor gölünün ərazisində tikilib. Layihə çərçivəsində gölün ətrafı tam təmizlənmiş, ekoloji bərpa işləri aparılmış və ərazi paytaxtın ən gözəl yaşıl zonalarından birinə çevrilmişdir.

Burada yeni şəhər mərkəzi (Şimal-Şərq oxu) də yaradılmışdır. Stadion şəhərin sıx mərkəzini boşaldaraq, inkişafı Heydər Əliyev prospekti boyunca şimal-şərq istiqamətinə doğru çəkmişdir. Ətrafda yeni nəqliyyat qovşaqları, körpülər və "Koroğlu" metrostansiyasının nəhəng keçid infrastrukturu qurulmuşdur.



Dayanıqlı şəhərsalma platformasına gəldikdə isə, bu idman qurğusunun ərazisi o qədər funksional planlaşdırılıb ki, o, 180-dən çox ölkənin qatıldığı BMT-nin Ümumdünya Şəhərsalma Forumunun (WUF13) əsas platforması kimi də istifadə olundu. Bu, arenanın şəhər içində müstəqil və dayanıqlı bir "ağıllı şəhərcik" funksiyasını yerinə yetirdiyini sübut edir.

Dünyanın qabaqcıl təşkilatları və media nəhəngləri tərəfindən yüksək qiymətləndirilən Bakı Olimpiya Stadionu bir çox mükafatlara və titullara layiq görülmüşdür. ABŞ-nin nüfuzlu mühəndislik jurnalı olan "Engineering News Record" (ENR) 2015-ci ildə stadionu idman və əyləncə obyektləri nominasiyasında qlobal miqyasda "Dünyanın ən yaxşı idman obyekti" elan etmişdir. Layihə dizayn, mühəndislik mürəkkəbliyi və rekord müddətdə tikilmə meyarlarına görə qlobal rəqiblərini geridə qoymuşdur. Bundan əlavə, Amerika Mühəndislik Şirkətləri Şurası (ACEC) 2016-cı ildə Nyu Yorkda keçirilən təntənəli mərasimdə Bakı Olimpiya Stadionunu mürəkkəb mühəndislik həllərinə və polad konstruksiyasına görə struktur sahəsində ən mükəmməl layihə seçmişdir. 2017-ci ildə keçirilən Dünya Stadion Konqresində isə bu nəhəng arena "Dünyanın ən yaxşı yeni stadionu" mükafatına layiq görülərək beynəlxalq arenada növbəti uğura imza atmışdır.

Bunlar da hələ hamısı deyil. Beynəlxalq aləmdə ən böyük stadion məlumat bazası olan "StadiumDB" tərəfindən keçirilən qlobal səsvermədə Bakı Olimpiya Stadionu dünyanın ən yaxşı yeni tikilmiş 7-ci stadionu seçilmişdir. Həmçinin dünyanın ən nüfuzlu futbol jurnallarından olan "FourFourTwo" 2024-cü ildə yenilədiyi qlobal reytinqdə Bakı Olimpiya Stadionunu "Dünyanın ən yaxşı 50 futbol arenası" sırasına daxil etmişdir. Eyni zamanda stadion Avropa Futbol Assosiasiyaları İttifaqının "UEFA Category 4" (Elite) stadionları siyahısına salınmışdır. Belə bir beynəlxalq tanınma sübut edir ki, Bakı Olimpiya Stadionu təkcə Azərbaycanın deyil, həm də dünya memarlıq və idman obyektlərinin sırasında ən seçilən arenalardan biridir.

### "Baku City Rezidence Olimpik" yaşayış kompleksi

Paytaxtın dinamik inkişaf tempinə uyğun olaraq, bu gün həm Bakının memarlıq siması gündən-günə yenilənir, həm də sakinlərin rahatlığı və müasir tələblərinə cavab verən müasir yaşayış məkanları salınır. Bu transformasiyanın ən bariz və diqqətçəkən nümunələrindən biri Heydər Əliyev prospektinin dinamik inkişaf edən işgüzar qovşağında ucalan "Baku City Rezidence Olimpik" kompleksidir.

Ölkənin ən möhtəşəm idman arenası olan Bakı Olimpiya Stadionu, nazirliklərin müasir inzibati binaları və strateji nəqliyyat qovşaqları ilə qonşuluqda yerləşən bu irimiqyaslı layihə sadəcə bir yaşayış məkanı deyil, həm də paytaxtın gələcək inkişaf vektorunu müəyyən edən yeni nəsil şəhərcik modelidir. "Şəhər daxilində şəhər" konsepsiyası əsasında layihələndirilən bu kompleks səs-küylü meqapolisin mərkəzində insanlara həm ekoloji təmizlik, həm də maksimal infrastruktur əlçatanlığı vəd edir. 9 hektar nəhəng ərazini əhatə edən "Baku City Rezidence Olimpik" paytaxtın nəqliyyat istiqaməti sayılan "Koroğlu" metrosu və Heydər Əliyev Beynəlxalq Aeroportu şosesinin tam kəsişməsində yerləşməklə vətəndaşlara şəhərin istənilən nöqtəsinə sürətli çıxış imkanı verir. Bakının 2040-cı il baş planının hədəflərinə uyğun gələn BCR Olimpik yerləşdiyi mövqeyə görə müstəsna şəhərsalma əhəmiyyətinə malikdir.

Kompleksin memarlıq fəlsəfəsinin əsasını genişlik, işıq və təhlükəsizlik təşkil edir. Tikintidə tətbiq olunan yüksək seysmik dayanıqlıq normaları, fasad izolyasiya sistemləri və ekoloji cəhətdən təmiz materiallar binaların uzunömürlüyünü və enerji effektivliyini təmin edir. Mütəxəssislərin fikirlərinə görə, "Baku City Rezidence Olimpik" insanların rahat, statuslu və funksional həyat tərzini bir məkanda birləşdirən mütərəqqi şəhərsalma nümunəsidir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Yenidən qurulan və abadlaşan yollarımız

## Təkcə Bakının 110-dan çox küçə və prospektində təmir işləri gedir

**Mövsümlə əlaqədar Bakıda küçə və prospektlərdə genişmiqyaslı təmir işləri aparılır. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin məlumatına görə, hazırda Bakının 12 rayonunda 110-dan çox küçə və prospektində təmir işləri həyata keçirilir. 800 min kvadratmetrdən artıq yol örtüyünün yenilənməsi nəzərdə tutulur. 20-yə yaxın küçə və prospektdə təmir işləri tam başa çatdırılıb. Daha 10-a yaxın yol sahəsində isə işlər gedir.**



Belə ünvanlardan biri də Nərimanov rayonu ərazisindəki Təbriz və Əhməd Rəcəbli küçələridir. "Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı" çərçivəsində Təbriz küçəsində, eləcə də Həsən Əliyev və Əhməd Rəcəbli küçələrində yenidənqurma layihəsi çərçivəsində bir neçə ay əvvəl başlanan tikinti işləri şənbə-bazar günləri də davam edir.

2027-ci ildə istifadəyə verilməsi planlaşdırılan Akademik Həsən Əliyev küçəsi - "Koroğlu" metrostansiyası avtomobil yolunda son aylar tikinti işlərinin intensivliyi müşahidə olunur. Ötən ildən icrasına başlanılan layihə çərçivəsində yolun keçəcəyi ərazidə yerləşən bir sıra obyektlər tamamilə sökülüb. İndi burada yerüstü və yeraltı yollar çəkilir.



Hazırda işlər Rövşən Əliyev və Ələsgər Qayıbov küçələrindən Fətəli xan Xoyski küçəsi istiqamətinə start götürüb. Layihə üzrə digər ərazilərdə nəzərdə tutulan işlər də qrafikə uyğun aparılır. İşlərin mərhələli icrası nəqliyyatın fasiləsizliyinin təmin olunmasına, eyni zamanda mövcud yol şəbəkəsində yarana biləcək narahatlıqların minimuma endirilməsinə xidmət edir. Qeyd edək ki, magistral küçə kimi inşa olunan yolun ümumi uzunluğu 3,896 metrdir. Yolun hərəkət hissəsi 6 zolaqlı, hər zolağın eni 3,5 metr olacaq. Layihəyə əsasən, burada 4 tunel və 3 yeraltı piyada keçidi tikiləcək.

Həsən Əliyev və Əhməd Rəcəbli küçələrinin kəsişməsində avtomobil tunelinin inşasının çox hissəsi başa çatıb. Burada tikinti işləri metronun "Koroğlu" stansiyası, yeni avtomobil yolu layihəsi çərçivəsində aparılır.

Təbriz küçəsinin "Böyük meydan" adlanan ərazisində də yenidənqurma işləri gedir. Küçənin Heydər Əliyev Mərkəzinin qarşısından keçən hissəsindən "Nərimanov" metrostansiyasınadək piyada yollarında yenidənqurma işləri yeni dizaynda aparılır. "Nəriman Nərimanov" metro stansiyasının ətrafında avtobuslar üçün kiçik mübadilə mərkəzi yaradılması işlərinə başlanılıb. Ərazidə yeni piyada keçidləri təşkil olunacaq və kəsintisiz piyada mühiti formalaşdırılacaq.



Bakının yeni salınan və əsaslı təmir-tikinti aparılan küçə və prospektlərində dünya standartlarına uyğun işıqforlar quraşdırılır. Bu onu göstərir ki, ölkəmizdə son illər yol hərəkəti təhlükəsizliyinin artırılması məqsədilə texnologiyaların rolu sürətlə genişlənir. Yol kameralarına inteqrasiya olunan süni intellekt modelləri artıq sürücülərin davranışlarını real vaxtda analiz edə bilir. Bu sistemlər sükan arxasında mobil telefondan istifadə, təhlükəsizlik kəmərinin taxılmaması kimi qayda pozuntularını yüksək dəqiqliklə aşkarlayaraq avtomatik cərimələmə mexanizmini işə salır. Belə innovativ yanaşma həm qayda pozuntularının azalmasına, həm də yol qəzalarının qarşısının alınmasına xidmət edir.

Artıq ölkəmizdə "ağıllı" radarlar və "ağıllı" işıqforların quraşdırılması həyata keçirilir. Proses Bakıdan başlayaraq, bütün bölgələri əhatə edəcək. Ölkənin müxtəlif yollarında təhlükəsizlik kəmərinin taxılmamasını qeydə alan xüsusi kameralar da quraşdırılıb.

Texnologiyanın imkanları təkcə kəmər və ya telefonla məhdudlaşmır. Yaxın gələcəkdə bu sistemlərin sürücünün yorğunluq dərəcəsini, diqqətinin yayınmasını və hətta avtomobilin hərəkət trayektoriyasındakı qeyri-adiliyi müəyyən etməsi gözlənilir. Belə sistemlərin tətbiqi insan amilindən qaynaqlanan səhvləri minimuma endirəcək. Avtomatlaşdırılmış nəzarət sürücülərdə hər an izlənildiyini yadda saxlamaqla onları daha məsuliyyətli olmağa məcbur edəcək. Bu isə həm sürücülərin, həm də piyadaların təhlükəsizliyi üçün ən effektiv yollardan biridir.

*Rəhman SALMANLI,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*



# "Şəhərsalma və Memarlıq İli" çərçivəsində maarifləndirici tədbir keçirilib

**Neftçalanın Tatarməhlə kəndində ictimaiyyət nümayəndələrinin, aidiyyəti məsul şəxslərin iştirakı ilə "Şəhərsalma və memarlıq sahəsində qanunvericiliyin tətbiqi və dayanıqlı inkişaf prinsipləri" mövzusunda növbəti ictimai maarifləndirici tədbir keçirilib.**



Rayon icra hakimiyyəti başçısının müavini Burcalı Ağayev müasir şəhərsalma siyasətində dayanıqlı inkişafın, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin maddələri ilə tənzimlənməsi barədə yığıncaq iştirakçılarına ətraflı məlumat verib. Neftçalanın baş memarı - RİH-in sektor müdiri Dilavər Əliyev çıxışında Şəhərsalma və Tikinti Məcəlləsinin tələblərinə əməl olunmaqla bir pəncərə elektron tikinti portalı, portaldan qeydiyyatdan keçməklə sənədlərin portal üzərindən yerləşdirilməsi və Tikintilərin Dövlət Reyestrinə tikintiyə icazələrin verilməsi ilə əlaqədar zəruri məlumatların daxil edilməsi barədə ətraflı məlumat verərək fərdi yaşayış evlərinin, sahibkarlıq obyektlərinin tikintisi və sənədləşdirilməsi istiqamətində əsas məqamları yığıncaq iştirakçılarının diqqətinə çatdırıb. RİH-in sektor müdiri Nəsib Abbasov isə qanunsuz tikililərin Azərbaycan Respublikasında hüquqi tənzimləməyə uyğun olmayan, icazəsiz və normativləri pozan tikililər olması və bu tip tikililərin şəhərsalma qaydalarını pozmaqla memarlıq estetikası və ətraf mühit üçün təhlükə yaratması barədə danışıb.

İctimai maarifləndirmə tədbirinin yekununda yığıncaq iştirakçılarının təklif və fikirləri dinlənilib, qarşılıqlı fikir mübadiləsi formatında müzakirələr aparılıb.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*



# AZƏRBAYCANIN YENİ RƏQƏMSAL ARXİTEKTURASI






## Elm və təhsil süni intellektin sürəti ilə ayaqlaşmağa məcburdur

**Stanford Universitetinin Stanford Institute for Human-Centered Artificial Intelligence (Stanford HAI) tərəfindən hazırlanmış 2026 AI Index Report-u açıqlanıb. Hesabatdan da göründüyü kimi, Süni İntellekt (Sİ) artıq gələcəyin texnologiyası deyil, o, elmin, təhsilin və cəmiyyətin bu gününü dəyişdirən reallıqdır.**

Əgər bir neçə il əvvəl süni intellektin hansı imkanlara sahib olacağı müzakirə edilirdisə, bu gün əsas sual tamam başqadır: süni intellektin sürətlə inkişaf etdiyi bir dünyada elm, universitet və təhsil sistemi bu sürətlə ayaqlaşa bilirmi? "AI Index Report 2026" məhz bu suala qlobal miqyasda, böyükhəcmli məlumatlar və çoxsaylı göstəricilər əsasında cavab axtarır. Hesabat süni intellektin təkcə texnoloji imkanlarını deyil, onun elmi tədqiqatlara, təhsilə, iqtisadiyyata, səhiyyəyə, əmək bazarına və cəmiyyətə təsirini bütöv şəkildə təhlil edir.

Bəlkə də ən böyük dəyişiklik elmin özündə baş verir. Sİ artıq ayrı-ayrı elmi sahələrdə köməkçi vasitə olmaqdan çıxaraq tədqiqat prosesinin özünün iştirakçısına çevrilir. Bununla yanaşı, Sİ sistemlərinin imkanları ilə məhdudiyyətlərinin eyni vaxtda nəzərə alınmasının vacibliyi göstərilir. Təhsil sahəsində isə dəyişiklik daha fundamental xarakter daşıyır. Məsələ artıq "tələbə Sİ-dən istifadə etməlidirmi?" sualından çox, "Sİ ilə öyrənmə, qiymətləndirmə və müəllimlik necə yenidən qurulmalıdır?" sualına çevrilir.

Bu baxımdan "AI Index Report 2026" yalnız süni intellektin inkişafını ölçən texnoloji hesabat deyil. O, universitetlərin, alimlərin, müəllimlərin qarşısında duran yeni reallığın xəritəsidir. Bu xəritədə ən mühüm mesajlardan biri budur ki, süni intellektin yaratdığı dəyişikliklərə hazırlaşmaq artıq elm və təhsilin rəqabət qabiliyyətini qorumağın əsas şərtlərindən biridir. Hesabatdan çıxan əsas nəticələr həm də ali təhsil perspektivindən də diqqəti cəlb edir. Hesabatın ən mühüm nəticəsi bir cümlə ilə belə ifadə oluna bilər: "Süni intellektin imkanları çox sürətlə artır, lakin cəmiyyətin onu ölçmək, idarə etmək, tənzimləmək və təhsil sistemlərinə inteqrasiya etmək qabiliyyəti bu sürətə çatmır". Stanford bu vəziyyəti faktiki olaraq süni intellektin imkanları ilə onu idarə etmək qabiliyyəti arasındakı artan fərq kimi göstərir.

Sİ-in inkişafı dayanmayıb, əksinə, sürətlənir. Həm də maraqlıdır ki, 2025-ci ildə qabaqcıl Sİ modellərinin 90 faizdən çoxunu sənaye şirkətləri hazırlayıb. Bir sıra modellər artıq PhD səviyyəli elm suallarında, multimodal mühakimələrdə, mürəkkəb riyazi məsələlərdə, proqramlaşdırmada insan səviyyəsinə çatır və ya onu üstələyir. Məsələn, SWE-bench Verified proqramlaşdırma benchmarkında nəticələr bir il ərzində təxminən 60 faizdən 100 faizə yaxınlaşıb. Təşkilatların Sİ-dən istifadə səviyyəsi isə 88 faizə çatıb. Universitet tələbələrinin təxminən 80 faizi Generativ Sİ-dən istifadə edir. Beləliklə, Sİ artıq işin, təhsilin və tədqiqatın ümumi infrastrukturuna çevrilir.

ABŞ-Çin Sİ rəqabətində fərq demək olar ki, aradan qaldırılıb. Bu, hesabatın geosiyasi baxımdan ən mühüm nəticələrindən biridir. 2026-cı ilin martına olan məlumata görə, ən qabaqcıl ABŞ modeli Çin modellərindən cəmi 2,7 faiz öndədir. Bununla yanaşı, ABŞ qabaqcıl frontier modellər, yüksək təsirli patentlər, özəl investisiyalar, Sİ startapları kimi sahələrdə üstünlüyə malikdirsə, Çinin üstün olduğu sahələr elmi nəşrlərin sayı, sitatlar, patentlərin ümumi sayı, sənaye robotlarının quraşdırılmasıdır. Yəni artıq "Çin Sİ-də ABŞ-nin arxasınca gəlir" fikri doğru deyil. Rəqabət artıq ikiqütblü xarakter alıb.

Sİ infrastrukturu strateji resursa çevrilir. ABŞ-də digər ölkələrdən ən azı 10 dəfə çox - 5 427 Sİ data mərkəzi mövcuddur. Sİ data mərkəzlərinin ümumi enerji gücü 29,6 GW-a çatıb. Bu, Sİ-in artıq yalnız İT məsələsi olmadığını göstərir. Sİ siyasəti eyni zamanda enerji, çip, data mərkəzi, su, telekommunikasiya, kapital, insan kapitalı siyasətidir. Daha maraqlı məqam da odur ki, qabaqcıl Sİ çiplərinin böyük əksəriyyətinin istehsalı bir Tayvan şirkətindən - TSMC-dən asılıdır. Bu səbəbdən Sİ suverenliyi dövlət siyasətinin yeni istiqamətinə çevrilir.

Sİ artıq "insan səviyyəsi"ni bəzi sahələrdə üstələyir. Hesabatın ən maraqlı konsepsiyalarından biri "qeyri-bərabər intellekt"dir. Sİ Beynəlxalq Riyaziyyat Olimpiadasında qızıl medal səviyyəsinə çata bilir, mürəkkəb elmi məsələləri həll edir, kompüterdə real işləri yerinə yetirən agentlərdə böyük irəliləyiş göstərir. Amma eyni model analoq saatı düzgün oxumaqda, bəzi sadə fiziki məntiq tapşırıqlarında, real dünyada ardıcıl icrada hələ də səhv edə bilir. Məsələn, ən qabaqcıl model analoq saatı düzgün oxumaqda cəmi 50,1 faiz nəticə göstərib. Əsas fikir ondan ibarətdir ki, Sİ "ümumilikdə ağıllı" deyil və müxtəlif tapşırıqlarda çox fərqli səviyyələr nümayiş etdirir. Bu, təhsil üçün çox vacibdir.

Bençmark problemi yaranır. Sİ o qədər sürətlə inkişaf edir ki, onu ölçmək üçün istifadə olunan testlər sürətlə köhnəlir. Bəzi bençmarklar hazırlanandan bir neçə ay sonra artıq modelləri fərqləndirə bilmir. Üstəlik, geniş istifadə olunan bəzi bençmarklarda 2 faizdən 42 faizə qədər səhv/problemli sual müəyyən edilib. Bu o deməkdir ki, Sİ-in inkişafını yalnız bençmark nəticələri ilə ölçmək getdikcə daha çətin olacaq. Bu, universitetlər üçün xüsusilə vacibdir. Çünki klassik imtahanlar və standart testlər Sİ dövründə əvvəlki etibarlılığını itirə bilər.

Məsuliyyətli Sİ inkişafın arxasında qalır. Bu, hesabatın ən ciddi xəbərdarlıqlarından biridir. Süni intellektin imkanları sürətlə artır, lakin təhlükəsizlik, ədalətlilik, şəffaflıq, izah-olunma və idarəetmə eyni sürətlə inkişaf etmir. Sənədləşdirilmiş Sİ - Sİ sisteminin necə hazırlandığı, hansı məlumatlardan istifadə etdiyi, necə işlədiyi, hansı məhdudiyyətlərə və risklərə malik olduğu barədə məlumatların sistemli şəkildə sənədləşdirilməsi - hallarının sayı 2024-cü ildə 233, 2025-ci ildə isə 362 olub. Daha maraqlısı həm də odur ki, ən güclü modellər haqqında məlumatların açıqlanması da azalır.

Sİ iqtisadiyyatı sürətlə böyüyür. ABŞ-də 2025-ci ildə özəl Sİ investisiyası 285,9 milyard dollar olduğu halda, Çində bu rəqəm 12,4 milyard dollar göstərilir. Lakin Stanford bunun Çin dövlət fondlarının rolunu tam əks etdirməyə biləcəyini də qeyd edir. ABŞ-də 2025-ci ildə 1953 yeni maliyyələşdirilmiş Sİ şirkəti yaranıb. Lakin başqa bir paradoks əmələ gəlir: ABŞ Sİ kapitalında liderdir, amma Si istedadları cəlb etməkdə zəifləyir. ABŞ-yə köçən Sİ tədqiqatçıları və developerlərinin sayı 2017-ci ildən 89 faiz azalıb.

Generativ Sİ internetdən daha sürətlə yayılır. Hesabatın ən diqqətçəkən statistikalarından biri odur ki, Generativ Sİ dünya əhalisinin 53 faizinə cəmi 3 il ərzində çatıb. Bu, internetin yayılmasından daha sürətli tempdir. 2026-cı ilin əvvəlində ABŞ istehlakçıları üçün Generativ Sİ-in illik hesablanmış iqtisadi/istifadə dəyəri 172 milyard dollar qiymətləndirilib.

Əmək bazarında Sİ artıq proqnoz deyil, reallıqdır. Sİ-in əmək bazarına təsiri artıq gələcəyin məsələsi deyil. Hesabat xüsusilə gənc işçilərin daha erkən təsirləndiyini göstərir. Eyni zamanda dünyada işçilərin 58 faizi 2025-ci ildə Sİ-dən işdə müntəzəm və ya qeyri-müntəzəm istifadə etdiyini bildirib. Bəzi inkişaf etməkdə olan ölkələrdə bu göstərici 80 faizdən yuxarıdır. Bu isə universitetlər üçün fundamental sual yaradır: əgər işin özü Sİ tərəfindən dəyişdirilirsə, universitet tələbəni hansı işə hazırlamalıdır?

Sİ-nin elmə inteqrasiyası sürətlənir. 2026 hesabatında ilk dəfə ayrıca Elm bölməsi var. 2025-ci ildə təbiət elmlərində Sİ ilə əlaqəli təxminən 80150 elmi nəşr olub. Bu, bir il ərzində 26 faiz artım deməkdir. Sİ artıq biologiya, kimya, fizika, astronomiya, materialşünaslıq kimi sahələrdə tədqiqat prosesinin bir hissəsinə çevrilir. Lakin daha bir maraqlı paradoks var: Sİ bəzi sahələrdə alimlərdən daha yaxşı nəticə göstərə bilir, amma hələ də dərc olunmuş elmi nəticəni müstəqil şəkildə etibarlı formada təkrarlamaqda çətinlik çəkir.

Təhsil Sİ dəyişikliklərinə çata bilmir, geridə qalır. ABŞ-də orta məktəb və universitet tələbələrinin 80 faizdən çoxu təhsil məqsədilə Sİ-dən istifadə edir. Amma məktəblərin yalnız təxminən yarısında Sİ siyasəti var. Müəllimlərin yalnız 6 faizi həmin siyasətlərin aydın olduğunu düşünür. Yəni tələbələr Sİ-dən istifadə edir, amma universitetlər və məktəblər isə hələ Sİ-nin necə istifadə edilməli olduğunu tam müəyyənləşdirə bilməyiblər.

Universitetlər üçün ən böyük dəyişiklik ondan ibarətdil ki, Sİ artıq "qadağan ediləcək alət" deyil. Stanford hesabatından çıxan ən mühüm təhsil nəticələrindən biri budur ki, köhnə model "Sİ-dən istifadə etmə, imtahanda özün yaz - esseni özün hazırla" olduğu halda yeni model "Sİ ilə işləməyi öyrən, Sİ-nin nəticəsini yoxla, öz analitik düşüncəni nümayiş etdir, Sİ-dən daha yüksəksəviyyəli nəticə əldə et"dir. Bu, qiymətləndirmə sisteminin dəyişməsini tələb edir. Yəni Sİ, qiymətləndirmə, kurikulum, tədris, müəllimlərin peşəkar inkişafı birlikdə dəyişməlidir.

Sİ siyasətində "Sİ suverenliyi" dövrü başlayır. Ölkələr artıq yalnız "Sİ-dən necə istifadə edək?" sualını vermirlər. Daha strateji sual "Sİ-nin hansı hissəsinə özümüz nəzarət edirik?" olur. Buna görə milli Sİ strategiyalarının sayı artır və xüsusilə inkişaf etməkdə olan ölkələrdə Sİ strategiyalarının hazırlanması sürətlənir. Stanford bunu "Sİ suverenliyi" anlayışının yüksəlişi ilə əlaqələndirir.

Cəmiyyət Sİ-yə həm ümid, həm də narahatlıqla yanaşır. Sİ-nin faydalarına inananların qlobal payı 55 faizdən 59 faizə artıb. Amma Sİ məhsullarının insanlarda narahatlıq yaratdığını deyənlərin payı da 52 faizə yüksəlib. Xüsusilə ABŞ-də Sİ-nin iş yerlərini azaltması ilə bağlı narahatlıq yüksəkdir. Bu, Sİ siyasətində yalnız texnologiyanın deyil, ictimai etimadın da əsas məsələ olduğunu göstərir.

Hesabat ali təhsil baxımından xüsusən maraqlıdır. Belə ku, ali təhsil perspektivindən bu hesabatı təhlil edəndə bəzi nəticələri qeyd etmək olar:

1. Sİ artıq ayrıca ixtisas deyil, bütün ixtisasların komponentidir. İqtisadçı, maliyyəçi, marketoloq, hüquqşünas, menecer və mühəndis Sİ ilə işləməyi bacarmalıdır;

2. Sİ savadlığı bütün tələbələr üçün fundamental kompetensiyaya çevrilməlidir;

3. Tələbələrin biliyinin qiymətləndirilməsi kritik məsələdir. Sİ dövründə əsas sual "Tələbə cavabı özü yazıbmı?" deyil. Daha vacib sual "Tələbə problemi necə müəyyənləşdirdi, Sİ-dən necə istifadə etdi, nəticəni necə yoxladı və hansı müstəqil intellektual töhfəni verdi?";

4. Müəllimlərin peşəkar inkişafı dəyişməlidir. Müəllim artıq yalnız fənni bilən şəxs yox, "Sİ və fənn üzrə ekspert" olmalıdır;

5. Universitet Sİ idarəetmə laboratoriyasına çevrilməlidir. Süni intellekt etikası, məxfilik, qiymətləndirmə, akademik dürüstlük, süni intellekt təhlükəsizliyi vahid ekosistem kimi idarə edilməlidir;

6. Sİ tədqiqatı universitetin əsas rəqabət üstünlüyünə çevrilir. Sİ artıq yalnız Computer Elmləri fakültəsinin işi deyil. Sİ və iqtisadiyyat, Sİ və maliyyə, Sİ və biznes, Sİ və təhsil kimi sahələrarası modellər daha vacib olacaq;

7. Ən böyük nəticə ondan ibarətdir ki, universitetlər Sİ-nin universitetə gəlməsini gözləməməlidirlər. Sİ artıq universitetin içindədir - tələbənin, müəllimin, tədqiqatçının və idarəetmənin gündəlik fəaliyyətindədir. İndi məsələ Sİ-nin olub-olmaması deyil, universitetin Sİ dövründə necə yenidən dizayn edilməsidir.

***Ədalət MURADOV,***
***UNEC-in rektoru, professor***

## Rəqəmsal təhlükəsizlikdə saxtakarlığa qarşı hansı mübarizə yolları mövcuddur

**Gündəlik həyatımız artıq rəqəmsal mühitlə tənzimlənir. Səhər oyanan kimi xəbər lentini nəzərdən keçirmək, işə gedərkən rəqəmsal xəritələrdən istifadə etmək və ya məsafədən ödənişlər etmək həyatımızın adi bir hissəsidir. Lakin bu sürətli rəqəmsallaşma özü ilə bərabər risklər və təhdidlər də gətirib. Müasir dövrdə bəzi informasiyalar qlobal miqyasda manipulyasiya, təsir və təhlükəsizlik alətinə çevrilib.**

İnformasiya bolluğu dövründə yaşasaq da, həqiqəti tapmaq hər zamankından daha çətindir. Massaçusets Texnologiya İnstitutunun apardığı genişmiqyaslı qlobal tədqiqatlar göstərir ki, sosial şəbəkələrdə yalan və saxta xəbərlər həqiqi xəbərlərə nisbətən sürətlə yayılır və emosional reaksiyalar doğuran məzmunlar önə çəkilir. Sosial şəbəkə alqoritmlərinin bu cür qurulması yalan məlumatın həqiqətdən qat-qat sürətlə yayılmasına şərait yaradır. Qlobal sorğular və təhlillər də göstərir ki, internet istifadəçilərinin mütləq əksəriyyəti onlayn dezinformasiyadan və saxta məlumat axınından ciddi şəkildə narahatdır. Dezinformasiya cəmiyyətləri qütbləşdirmək, seçkilərə müdaxilə etmək və dövlətlərin sabitliyini sarsıtmaq üçün istifadə olunan silaha çevrilib. İnsanlar təsdiqlənməmiş məlumatları oxuyarkən tənqidi təfəkkür sistemini unudur, bu da manipulyasiyanın genişlənməsinə səbəb olur.



Azərbaycan media məkanında da xüsusilə sosial şəbəkə platformalarında və bəzi xəbər səhifələrində həqiqətə uyğun olmayan, sensasiya xatirinə yayılan dezinformasiya hallarına rast gəlinir. Ölkəmizdə informasiya təhlükəsizliyinin qorunması, eləcə də İkinci Qarabağ müharibəsi dövründə və sonrakı mərhələdə şahidi olduğumuz kiberhücumlar və informasiya əməliyyatlarından məlum oldu ki, yerli auditoriya üçün də mediadan düzgün istifadə etmək mühüm əhəmiyyət daşıyır.

Rəqəmsal təhlükəsizlikdə yeni və ən qorxunc mərhələ "deepfake" texnologiyasıdır. Süni intellekt və maşın öyrənməsi əsasında işləyən bu alətlər istənilən insanın səsini, mimikasını və hərəkətlərini elə dəqiq təqlid edir ki, saxta ilə əslini ayırmaq mümkünsüz olur. Qlobal miqyasda aparılan təhlillərə və beynəlxalq hesabatlara əsasən, "deepfake" texnologiyaları ilə bağlı fırıldaqçılıq halları milyardlarla dollar zərərə yol açıb. Məsələn, son statistikalara nəzər salsaq görərik ki, "deepfake" əsaslı maliyyə fırıldaqçılığı milyardlarla dollar ziyana səbəb olub. Birincisi, tanınmış siyasi xadimlərin və hökumət rəsmilərinin heç vaxt demədikləri sözləri dedikləri saxta videoların yayılması kimi siyasi manipulyasiyalar baş verir ki, bu cür investisiya və siyasi fırıldaqlar bütün zərərlərin yarıdan çoxunu təşkil edir. İkincisi, şirkət rəhbərlərinin səslərini kopyalayaraq işçilərdən pul köçürmələrini tələb edən səsli zənglər vasitəsilə korporativ maliyyə fırıldaqçılığı törədilir. Belə qlobal hücumlar nəticəsində təşkilatlar milyardlarla dollar zərərə düşür. Üçüncüsü isə vətəndaşların şəxsi həyatına müdaxilə edən saxta vizual materialların hazırlanması ilə şəxsi toxunulmazlıq pozulur. Bütün bunlar artıq "görüntü sübutdur" prinsipinin işləmədiyini sübut edir ki, məhz buna görə də cəmiyyət gördüyünə və eşitdiyinə şübhə ilə yanaşmağı öyrənməlidir. Ölkəmizdə hələ ki qlobal miqyasdakı qədər kütləvi "deepfake" maliyyə fırıldaqçılığı qeydə alınmasa da, rəqəmsal savadlılığın artırılmaması gələcəkdə həm fərdlərin, həm də yerli qurumların bu cür hədəflərə çevrilməsi riskini artırır. Xüsusilə dövlət qurumlarının və tanınmış şəxslərin simasından istifadə edilərək yaradılacaq saxtakarlıqlar ciddi hüquqi və təhlükəsizlik tədbirləri tələb edir.

Rəqəmsal dünyanın təhdidləri qarşısında ənənəvi təhlükəsizlik tədbirləri kifayət etmir. Artıq kibertəhlükəsizlik dövlət strukturlarının və ya böyük korporasiyaların problemi ilə yanaşı, hər bir fərdin gündəlik məsuliyyətidir. Bu istiqamətdə əsas müdafiə xətləri bunlardır: güclü və fərdi şifrələrdən istifadə, ikimərhələli autentifikasiya və naməlum linklərə daxil olmamaq ilkin müdafiə xəttini təşkil edən rəqəmsal intizamdır. Həmçinin məlumatı paylaşmazdan əvvəl onun mənbəyini yoxlamaq və analitik yanaşma sərgiləmək cəmiyyəti dezinformasiyadan qoruyan əsas qala olan media savadlılığıdır. Azərbaycanda bu istiqamətdə Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və digər müvafiq qurumlar tərəfindən mühüm addımlar atılır, kiberhücumların qarşısı alınır və fərdlərin rəqəmsal intizam qaydalarına əməl etməsi istiqamətində maarifləndirmə işləri aparılır.

Rəqəmsallıq bəşəriyyətə sonsuz imkanlar qazandırdığı kimi, idarə olunmadığı təqdirdə cəmiyyəti daxildən dağıda biləcək risklər də yaradır. Süni intellekt əsrində yaşamaq o deməkdir ki, biz həm də daimi informasiya müharibəsinin iştirakçılarıyıq. Bu mühitdə sağ qalmağın və inkişaf etməyin yeganə yolu yüksək media savadlılığı, güclü kibertəhlükəsizlik vərdişləri və texnologiyaya qarşı tənqidi təfəkkürdür. Həqiqətin qorunması hər bir vətəndaşın borcudur.

***Təhminə VERDİYEVA,***
***"Azərbaycan"***

## Süni intellekt dəri xəstəliklərinin müalicəsinə kömək edəcək

**İspaniyanın Bilbao şəhərində yaradılan "Legit.Health" şirkəti dəri xəstəliklərinin müəyyənləşdirilməsi üçün süni intellekt əsaslı tibbi proqram hazırlayıb.**



Smartfonla çəkilən xəstəlik fotosunu saniyələr ərzində analiz edən bu sistem birbaşa xəstəxanaların elektron bazasına inteqrasiya olunur. Proqram həkimlərin əvəzinə son qərarı vermir, sadəcə ehtimal olunan xəstəliklərin siyahısını göstərir və qızartı, qabıqlanma kimi 40-a yaxın əlaməti ölçərək xəstəliyin dərəcəsini hesablayır.

Aparılan sınaqlar göstərib ki, bu texnologiya həkimlərin dəqiq diaqnoz qoymaq imkanını 15-21 faiz artırır, xüsusilə tünd dərili insanlarda və nadir xəstəliklərdə yanılma ehtimalını kəskin azaldır. Nəticədə pasiyentlərin lazımsız yerə mütəxəssislərə yönləndirilməsi 17 faiz azalıb.

Sözügedən proqram Avropada rəsmi "CE" sertifikatı alıb, hazırda isə ABŞ-də təsdiqlənmə mərhələsindədir.

***"Azərbaycan"***

## İŞİMİZ, GÜZƏRANIMIZ

# Sənaye zonaları qeyri-neft sektorunun inkişafında irəli çıxır

**Bu ilin yanvar-iyul aylarında ölkəmizdəki sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 38,9 milyard manatlıq məhsul istehsal edilib ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə real ifadədə 0,3 faiz çoxdur. Dövlət Statistika Komitəsindən aldığımız məlumatda bildirilir ki, məhsul istehsalı neft-qaz sektorunda 0,4 faiz azalsa da, qeyri-neft-qaz sektorunda 4,4 faiz artıb.**




Qeyri-neft-qaz sektorunda istehsal olunan məhsulun bir hissəsi də sənaye parklarının payına düşür. Hazırda ölkəmizdə 8 sənaye parkı fəaliyyət göstərir. Bu sənaye parklarında ümumilikdə 184 rezident qeydiyyata alınıb. Onların 101-i artıq işləyir və məhsul buraxır. İndiyədək rezidentlər tərəfindən 7,1 milyard manatdan çox investisiya cəlb edilib, 11 min 500-dən çox iş yeri yaradılıb.

Əvvəla xatırladaq ki, sənaye parklarının yaradılması bir sıra məqsədlərdən irəli gəlir. Bu parklar ilk növbədə iqtisadiyyatın, o cümlədən qeyri-neft-qaz sektorunun davamlı inkişafının təmin olunmasına xidmət edir. Onlar eləcə də innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının inkişafını, xidmətlərin göstərilməsi üçün münbit şəraitin yaradılmasını və bu sahədə sahibkarlığı dəstəkləyir. Sənaye parklarının fəaliyyəti nəticəsində ölkənin yerli və xarici investisiyalar üçün əlverişliliyi artır. Əmək qabiliyyətli əhalinin istehsal sahəsində məşğulluğunun artırılması da vacib məqamlardan biridir.

Ölkəmizdə sənaye parklarının, sənaye məhəllələrinin və aqroparkların idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı Prezident İlham Əliyevin 22 yanvar 2021-ci il tarixli fərmanına əsasən İqtisadi Zonaların inkişafı Agentliyi yaradılmışdır. Agentliyin yaradılmasının əsas məqsədi sənaye parklarının (Balaxanı Sənaye Parkı istisna olmaqla), sənaye məhəllələrinin (Naxçıvan Muxtar Respublikasında yaradılan sənaye məhəllələri istisna olmaqla) və aqroparkların fəaliyyətinin təşkili, onların idarə olunması və inkişafı ilə bağlı tədbirlər hazırlamaq, icrasını təmin etmək, o cümlədən bu istiqamətdə göstərilən dövlət dəstəyi tədbirlərini həyata keçirməkdir.

Xəbər verildiyi kimi, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 11-də Naxçıvana səfər çərçivəsində buradakı Sənaye Parkının təməlqoyma mərasimində də iştirak ediblər. Bu sənaye parkı dövlətimizin başçısının 2024-cü ildə imzaladığı fərmanla yaradılıb.

Beləliklə, indi fəaliyyət göstərən Sumqayıt, Mingəçevir, Qaradağ, Pirallahı, Ağdam, Hacıqabul, "Araz Vadisi İqtisadi Zonası" və Balaxanı sənaye parkları sırasına daha biri daxil oldu. Bundan başqa, Gəncə şəhərinin və Şəmkir rayonunun inzibati ərazilərində yaradılacaq Qərb Sənaye Parkında infrastrukturun qurulması üçün texniki şərtlərin alınması prosesi aparılır.

Naxçıvan Sənaye Parkından söz düşmüşkən qeyd edək ki, onun fəaliyyətinin təşkili məqsədilə ilkin olaraq ərazi istifadəyə yararlı vəziyyətə gətiriləcək. Növbəti mərhələdə isə xarici və daxili infrastrukturun, o cümlədən elektrik və istilik enerjisi, qaz, su, rabitə, nəqliyyat, istehsal, inzibati, sosial və digər obyektlərin yaradılması nəzərdə tutulur.

Naxçıvan şəhərinin cənub-qərb hissəsində, Naxçıvan-Sədərək avtomobil yolunun cənubunda yerləşən bu sənaye parkı 310 hektar ərazini əhatə edəcək. Artıq sənaye parkına potensial sahibkarların cəlb olunması istiqamətində bir sıra layihələr üzrə danışıqlar aparılır.

Bəs xeyli müddətdir fəaliyyət göstərən sənaye parklarında iş necə gedir, onlar nəyə nail ola biliblər? İki sənaye parkını misal gətirək. Əvvəlcə Sumqayıt Sənaye Parkına nəzər salaq.

Bu park Prezidentin 21 dekabr 2011-ci il tarixli fərmanı ilə yaradılıb. Ərazisində neft-kimya və digər prioritet sənaye sahələri üzrə rəqabətqabiliyyətli məhsulların (işlərin, xidmətlərin) istehsalı və emalı müəssisələrinin yaradılması nəzərdə tutulub.

Hazırda Sumqayıt Sənaye Parkının ərazisi təxminən 583-640 hektara çatıb. Parkda ümumi dəyəri 6 milyard manatdan çox olan 41 sahibkarlıq subyektinə rezidentlik statusu verilib, onlardan 24-ü fəaliyyət göstərir, 6600-dən artıq daimi iş yeri açılıb.

Burada polimerlər, azot gübrəsi, ferroərintilər, aqrokimyəvi məhsullar, tikinti materialları və digər məhsullar istehsal edilir. "Yaşıl iqtisadiyyat"a keçid və "NextGen" sənaye klasteri təşəbbüsləri həyata keçirilir.

Sənaye parkının rezidentlərinə bir sıra vergi və gömrük güzəştləri də tətbiq olunur. Belə ki, onlar 7 il müddətinə mənfəət, əmlak, torpaq vergilərindən, eləcə də texnika və avadanlıqların idxalına görə ƏDV və gömrük rüsumlarından azad edilirlər.

Təqdirəlayiq haldır ki, bu gün işğaldan azad olunmuş ərazilərimizdə də sənaye parkları fəaliyyət göstərir. Məsələn, Qarabağın dirçəldilməsi, sənaye potensialının inkişaf etdirilməsi məqsədilə dövlət başçısının 28 may 2021-ci il tarixli fərmanı ilə 190 hektar ərazidə Ağdam Sənaye Parkı yaradılıb. Burada tikinti materialları və metal məmulatlar, elektrik paylayıcı avadanlıqlar, dam və fasad örtükləri, divar kağızları, xüsusi iş geyimləri, ayaqqabılar və mebel məmulatları istehsal olunur.

2026-cı ilin avqust ayına olan məlumata əsasən, Ağdam Sənaye Parkına 177 milyon manatdan çox yatırım edilib, 30-dan çox sahibkarlıq subyektinə rezident statusu verilib. Parkda 12 müəssisə fəaliyyət göstərir, 12-sinin tikintisi və 10-nun layihələndirilməsi gedir.

Ağdam Sənaye Parkı tərəfindən cari ilin birinci yarısında 976 milyon manatlıq məhsul satılıb. Bunun da 42 milyon manatlıq hissəsi ixrac olunub. Açılan daimi iş yerlərinin sayı isə 1230-dan çoxdur.

Ümumilikdə isə bu il iyulun 1-nə olan məlumata görə, ölkəmizin sənaye parklarında 21,4 milyard manatlıq məhsul istehsal edilib. Bunun 6,7 milyard manatlıq hissəsi ixraca yönəldilib.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# "Mərkəzi Azəri" platformasında profilaktik işlər həyata keçirilməyə başlayıb

**BP "Azəri-Çıraq-Dərinsulu Günəşli" (AÇG) yatağının işlənməsi layihəsinin operatoru kimi bildirir ki, AÇG-nin illik iş proqramının bir hissəsi olaraq "Mərkəzi Azəri" platformasında dünəndən başlayaraq planlaşdırılmış profilaktik işlər proqramı həyata keçirilir.**

BP-dən bildirilib ki, 11 gün davam edəcək proqramda nəzərdə tutulmuş işlər aparılarkən platformadan hasilat bir qədər azaldılsa da, tam dayandırılmayacaq, çünki hazırda platformalarımızda tətbiq etdiyimiz qabaqcıl texnologiyalar profilaktik işlər zamanı hasilatı təhlükəsiz şəkildə davam etdirməyə imkan verir. Yeni texnologiyaların tətbiqi profilaktik işlər zamanı əməliyyatları təhlükəsiz və etibarlı şəkildə həyata keçirməyə imkan verməklə hasilata təsirləri minimuma endirməyə kömək edir.

"Azəri" sahəsindəki qurğuların həm layihələndirməsi, həm də əməliyyat konfiqurasiyası inteqrasiya edilmiş olduğundan həmin müddət ərzində "Şərqi Azəri" və "Qərbi Azəri" platformalarında da hasilat müvəqqəti olaraq azaldılacaq.

Bu profilaktik işlər proqramına müxtəlif layihələr, o cümlədən vacib bütövlük və texniki xidmət işləri, məşəl sistemində təkmilləşdirmələr, etibarlılığın artırılması təşəbbüsləri və anomaliyaların aradan qaldırılması tədbirləri daxildir.

Proqram, həmçinin "Mərkəzi Azəri" platformasında qazın yenidən laylara vurulma gücünü artırmaq məqsədi daşıyan və mövcud quyulardan neftverməni maksimuma çatdırmağa kömək etmək üçün nəzərdə tutulmuş "Mərkəzi Azəri Qaz Genişləndirilməsi" (CAGE) layihəsinin icrasına aid bəzi işləri də əhatə edəcək. Bu işlərə qazın yenidən laylara vurulması gücünün artırılması və əməliyyat çevikliyinin gücləndirilməsini dəstəkləmək məqsədilə kompressorun giriş xəttindəki kollektor boru sistemində modifikasiyalar, temperatur cihazlarının dəyişdirilməsi və istiqamətləndirici klapanların quraşdırılması daxildir.

"Mərkəzi Azəri"də aparılacaq profilaktik işlər proqramı normal əməliyyatların bir hissəsidir və planlaşdırılmış şəkildə həyata keçirilir. Bu proqramın planlaşdırılması işlərinə 2025-ci ildən başlanıb və proqram üzrə həyata keçirilən işlər 2026-cı ilin illik iş proqramı və büdcəsinə daxil edilib. Hasilatın müvəqqəti azaldılması da bu ilin hasilat planında nəzərdə tutulub.

AÇG-nin digər platformalarından, həmçinin "Şahdəniz" yatağının platformalarından hasilat və Səngəçal terminalında əməliyyatlar normal davam edəcək.

Profilaktik xidmət, təmir və modifikasiya işlərindən ibarət olan bu planlaşdırılmış proqram obyektlərin uzunmüddətli təhlükəsiz, etibarlı, bütöv şəkildə, ətraf mühitə ziyan vurmadan istismarının vacib bir hissəsidir.

## "IT Park Uzbekistan"ın icraçı direktoru:
# "Özbəkistan-Azərbaycan birgə şirkətlərinin yaradılmasını arzu edirəm"

**"IT Park Uzbekistan"ın icraçı direktoru Cahangir Rəcəbov Özbəkistan və Azərbaycanda startap ekosisteminin inkişafı, iki ölkənin İT şirkətləri arasında əməkdaşlıq, vençur investisiyaları və birgə texnoloji layihələrin perspektivləri barədə AZƏRTAC-a danışıb.**



*- Siz "INMerge" və "Baku ID" kimi tədbirlərdə Özbəkistan startaplarının iştirakını qeyd etdiniz. Sentyabr ayında Azərbaycandan olan startapların Özbəkistana səfəri gözlənilir. Bu sahədə ikitərəfli əməkdaşlığın perspektivlərini necə qiymətləndirirsiniz?*

- Özbəkistan və Azərbaycan çox yaxşı tərəfdaşlardır, ölkələrimiz arasında mehriban qonşuluq münasibətləri mövcuddur. Qeyd etmək vacibdir ki, Özbəkistan və Azərbaycanın özəl sektoru, İT şirkətləri və startapları da sıx əməkdaşlıq edir, şirkətlərimiz Azərbaycan tərəfinin təşkil etdiyi beynəlxalq tədbirlərdə iştirak edir. Özbəkistan şirkətləri Bakıya gəlməyi və "INMerge", "Baku ID" tədbirlərində iştirak etməyi çox sevirlər. Eləcə də sentyabrın 22-dən 25-dək keçiriləcək informasiya-kommunikasiya texnologiyaları sahəsində "ICT WEEK Uzbekistan" tədbirində ilk dəfə olaraq Azərbaycanın təxminən 10 şirkətinin iştirakı gözlənilir. Azərbaycanın İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi (İDDA) ilə çox yaxşı tərəfdaşlığımız var. Startapların və şirkətlərin mübadiləsi üzrə onunla çox sıx əməkdaşlıq planımız mövcuddur. Bütün bunlar özəl və dövlət sektorlarının bu ekosistemin birgə inkişaf etdirməsinə gətirib çıxarır.

Biz təcrübə və ekspertiza, eləcə də, ən azı bunun qədər vacib olan, ölkələrimiz arasında dayanıqlı əlaqələrin, körpünün və ekosistemin yaradılmasına kömək edən vençur investisiyaları mübadiləsi aparmalıyıq. Həmçinin Özbəkistan-Azərbaycan birgə startaplarını inkişaf etdirməyi düşünürük. Arzu edirəm ki, təkcə Özbəkistan və ya Azərbaycan startapları deyil, Özbəkistan-Azərbaycan şirkətləri yaradılsın.

*- Digər bir istiqamət kosmik texnologiyalardır. Özbəkistanda "Səmərqənd-2028" peyki orbitə buraxılıb. Məhz kosmik və GIS texnologiyaları sahəsində startapların inkişafı planlaşdırılırmı?*

- Yəqin heç kimə sirr deyil ki, hazırda kosmik texnologiyalar hər bir ölkədə inkişafın prioritet istiqamətlərindən biridir. Biz belə qənaətə gəlmişik ki, kosmik texnologiyalar, yəni kosmosda müstəqillik ümumilikdə müstəqil və daha sabit inkişafın, internetin, kommunikasiyaların və texnologiyaların inkişafının təminatlarından biridir. Bu məqsədlə və kosmik sənaye texnologiyalarının inkişafını dəstəkləmək üçün Səmərqənd şəhərində keçiriləcək beynəlxalq forumla əlaqədar "Səmərqənd-2028" peyki orbitə buraxılıb. "Uzbekkosmos" agentliyi ilə birlikdə bir sıra birgə hakatonlar keçirilir. Özbəkistandan ilk kosmonavtın kosmosa göndərilməsinə hazırlıq işləri aparılır.

# Yaşıl tarlalar bir azdan ağ örpəyə bürünəcək

**Hazırkı dövrdə kəndli fermer üçün mühüm olmayan fəsil, ay, gün yoxdur. O, bir məhsulu yığıb başa çatdırandan sonra növbəti il üçün plan cızmalı olur. İlk növbədə şum aparmaq, toxum tədarükü barədə fikirləşir.**

Ən kiçik fermer belə bu gün yalnız bir növ bitki əkib-becərməklə kifayətlənmir. Taxılla yanaşı, pambıq yetişdirir, yonca əkir, bostan-tərəvəzlə məşğul olur, mal-qara, qoyun-quzu, toyuq-cücə bəsləyir. Məsələn, o bu gün biçdiyi zəmidə herik şumu aparmaqla bərabər, saxladığı mal-qara üçün qışa yem tədarükü görür. Onların hər birinin vaxtında həyata keçirilməsinin çox mühüm əhəmiyyəti var. Amma bu günlər əsasən pambıq xüsusi diqqət və qayğı tələb edir. Fermerlərin çəkdiyi zəhmətin hasilə gəlməsinə, yaşıl qozaların "ağ qızıl"a dönməsinə sayılı günlər qalıb.

Bütün bunlar barədə Neftçala Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Miradil Əhmədli ilə söhbət edirik. Məlum olur ki, müsahibim əslən qonşu Sabirabad rayonundandır. "Atam rayonda uzun müddət kənd təsərrüfatı sahəsində rəhbər vəzifədə çalışdığından onun həmkarları ilə telefonla və ya üz-üzə görüşəndə pambıq haqqında çox söhbət etdiyini görmüşəm. Mən də kəndli balası kimi məktəbdə oxuyarkən yay tətili zamanı pambığın becərilməsində, payızda isə tarladan toplanışında iştirak etmişəm. Deməyim odur ki, pambıq adı mənə yad deyil", - deyir.

Sonra Miradil Əhmədli kolxoz quruluşu dağıldıqda pambığa qarşı göstərilən ögey münasibətdən, onun əkininin ləğv edilməsi barədə fikirlərin ortaya çıxmasından danışdı. Prezident İlham Əliyevin strateji əhəmiyyət kəsb edən bu bitkinin yetişdirilməsinə xüsusi diqqət verməsindən, kənd yerlərində yaşayan əhalinin məşğulluğunun təmin edilməsi sahəsində pambıqçılığın əhəmiyyətindən, "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın pambıqçılığın inkişafındakı rolundan bəhs etdi. Prezident İlham Əliyevin intensiv əkinçilik üsulunun tətbiqi nəticəsində taxılçılıq və pambıqçılıqda məhsuldarlığın 50 sentnerə çatdırılması vəzifəsini qarşıya qoyduğunu, bunun üçün Neftçalada aidiyyəti qurumların, mütəxəssis, fermer və sahibkarların məsuliyyət hissinin artdığını vurğuladı.

Söhbət əsnasında məlum oldu ki, bu il rayonda 4 şirkətin - "Prime Cotton", "P-Aqro", "Azərpambıq", "Aztəsərrüfat" MMC-lərin Neftçalada fəaliyyət göstərən filialları və "Taşobası" təsərrüfatı tərəfindən 1109 nəfər fermerlə cari ilin əvvəlində 6 min 735 hektarda pambıq istehsalı ilə bağlı müqavilə bağlanılıb. Artıq avqust ayının ikinci ongünlüyüdür. Bir çox mərhələdə demək olar ki, işlər başa çatmaq üzrədir. İndi bar toplama ayıdır. Mütəxəssislərin dediyinə görə, çəkilən zəhmət öz bəhrəsini verəcək. Hər kolun üstündə 13-14 formalaşmış qoza var. Yığıma kimi gül və daraqlardan daha 4-5 qoza yaranacaq. Bunlar isə böyük zəhmət, diqqət və qayğı nəticəsində hasilə gəlib. Məlumat üçün bildirək ki, əkin zamanı keyfiyyətli toxumla birlikdə hər hektara 150-200 kiloqram ammofos gübrəsi verilib. Bu da öz növbəsində torpaqda cücərən çiyidin yaxşı inkişaf etməsinə zəmin yaradıb. Sonrakı mərhələlərdə 5 dəfə kompleks becərmə aparılıb, 3 dəfə ketmənləmə, 2-3 dəfə suvarma, 18 min hektarda bir neçə dəfə sovkaya, tripis və mənənə xəstəliklərinə qarşı mübarizə tədbirləri aparılıb. Ümumilikdə 18 min hektarda kompleks yemləmə, 7 min 800 hektarda isə boynizamlayıcı işləri həyata keçirilib.



Hazırda tarlalarda son becərmə aparılır. Bununla yanaşı, yığıma hazırlıq işləri görülür. Rayon üzrə Amerika istehsalı olan 60 "Conder" markalı pambıqyığan maşın var ki, onların da bir hissəsi artıq start xəttindədir, qalanların üzərində işlər davam edir. Yığılan məhsulun tədarük məntəqələrinə daşınmasında 120 nəqliyyat traktoru, 350 lafet iştirak edəcək. Onların hər biri saz vəziyyətdədir.

Neftçalada fəaliyyət göstərən pambıqçı fermerlərdən biri Astanlı kənd sakini Emin Ələkbərovdur. Hələ uşaqlıq çağlarından torpaqla ünsiyyət bağlamağa meyil göstərib. Həyətyanı sahələrində meyvə-tərəvəz əkib, yetişdirib. Bunu görən valideynləri Eminin gələcəkdə aqronom olacağını zənn ediblər. Lakin həyat elə gətirib ki, kəndlərindəki orta məktəbi bitirən kimi sənədlərini Texniki Universitetə verib. Ali təhsilini başa vurduqdan sonra 2000-2002-ci illərdə leytenant kimi hərbi hissələrin birində xidmət edib. 2004-2009-cu illərdə Rayon Paylayıcı Elektrik Şəbəkəsində aparıcı mühəndis vəzifəsində çalışıb. Gənclik illəri heç özü də bilmədən onu şəhər mühitinə - Bakıya çəkir. Orada 3 il tikintilərin birində işləyib. Lakin doğulub boya-başa çatdığı kəndi, doğmalarını bir an belə unutmayıb. Üstəlik, evin tək oğlu olduğundan ata-anasının qayğısını çəkməyin onun üzərinə düşdüyünü dərk edib. Doğma kəndinə qayıdaraq ailə həyatı qurub. Elə həmin vaxtlar qonşu Qaramanlı kəndində "Prime Cotton" MMC-nin (o vaxt MKT İstehsalat Kommersiya MMC adlanırdı) filialı fəaliyyətə başlayıb. Çoxları kimi E.Ələkbərov da pambıq yetişdirməyə qərar verib. Birinci il 3,4 hektar sahənin hər hektarından 55 sentner məhsul götürüb. Yüksək məhsuldarlıq ona yaxşı qazanc gətirib. Bundan sonra torpaq sahələrini genişləndirib. Növbəli əkin sisteminin tətbiqini də yaddan çıxarmayıb.

Emin Ələkbərov keçən il pambıq əkdiyi 17 hektar sahənin hər hektarından 42 sentner məhsul əldə edib. Cari ilin əvvəlində 15 hektarda pambıq əkmək üçün həmişəki kimi, "Prime Cotton" MMC-nin Neftçala rayonundakı filialı ilə müqavilə bağlayıb. Sahələrdə 5 kompleks becərmə işləri görüb. 2 dəfə ketmənləmə, 2 dəfə suvarma, yemləmə, ziyanvericilər və xəstəliklərə qarşı mübarizə tədbirlərini də vaxtında və yüksək keyfiyyətlə aparıb. Hazırda hər kolun üstündə 13-14 çillənmiş qoza yetişib. Becərmə davam etdiyindən onların sayı tezliklə 18-19 olacaq.

E.Ələkbərov bu ilin may ayının 25-də Prezidentin imzaladığı dövlət proqramında qarşıya qoyduğu vəzifənin məsuliyyətini hiss edərək yorulmaq bilmədən çalışır, hər hektardan 50 sentner məhsul götürmək istəyir.

"Prime Cotton" MMC-nin Neftçala filialının müqavilə bağladığı digər fermerlər də bar toplama, yəni avqust ayının əhəmiyyətini dərk edərək bu günlər tarlada daha səylə çalışırlar. Onlar sentyabr ayında yığıma başlamağa hazırlaşırlar.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*



# Mədəniyyət



# Kimliyini qoruyan xalq dünyaya daha inamla açılır

**Bir xalqı dünyaya tanıtmağın çox yolu var. Bəzən bir xalqın adı tarix kitablarının səhifələrində, bəzən onun iqtisadi və siyasi uğurlarında, bəzən də bir musiqinin ecazkar sədasında, xalçanın ilməsində, sənətkarın əl əməyində, nəsildən-nəslə ötürülən qədim adət-ənənələrdə yaşayır. Azərbaycan xalqının dünyaya təqdim etdiyi böyük sərvətlərdən biri isə əsrlərin sınağından keçərək bu günümüzə gəlib çatan qeyri-maddi mədəni irsidir.**

Xalqımızın son onilliklər bu istiqamətdə qazandığı uğurlar az deyil. Bu, milli mədəniyyətə münasibətin dövlət siyasəti səviyyəsinə yüksəldilməsinin, mədəniyyətin yalnız keçmişin yadigarı deyil, həm də Azərbaycanın dünyadakı mövqeyini möhkəmləndirən mühüm vasitə kimi qəbul edilməsinin nəticəsidir. Həmin prosesin önündə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyəti xüsusi yer tutur. Mehriban xanım Əliyevanın mədəniyyət sahəsindəki fəaliyyətinə yalnız ayrı-ayrı layihələrin və tədbirlərin məcmusu kimi baxmaq doğru olmazdı. Onun arxasında qlobal missiya, daha geniş məqsəd dayanır - Azərbaycanın milli-mənəvi sərvətlərini qorumaq və onları dünya ictimaiyyətinə layiqincə təqdim etmək.

Bu istiqamətdə Heydər Əliyev Fondunun fəaliyyəti mühüm rol oynayır. Milli musiqinin, xalçaçılığın, sənətkarlıq nümunələrinin və digər mədəni dəyərlərin qorunması və təbliği ilə bağlı həyata keçirilən layihələr Azərbaycanın mədəni irsinin beynəlxalq miqyasda geniş tanınmasına imkan yaradıb.

Ən mühüm məqam budur ki, Azərbaycan öz mədəniyyətini dünyaya təqdim edərkən onu keçmişin donmuş yadigarı kimi göstərmir, əksinə, milli irsimizin bu gün də yaşayan və inkişaf edən bir mədəniyyət olduğunu nümayiş etdirir.

Azərbaycan muğamının beynəlxalq səviyyədə tanınması bunun ən parlaq nümunələrindəndir. Muğam xalqımızın illər boyu formalaşdırdığı mənəvi düşüncəsinin musiqidə ifadəsidir. 2003-cü ildə Azərbaycan muğamının UNESCO tərəfindən "Bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsəri" elan edilməsi, 2008-ci ildə isə UNESCO-nun Reprezentativ Siyahısına daxil olunması milli musiqi sənətimizin beynəlxalq səviyyədə qəbulunun mühüm göstəricilərindən biridir.

Azərbaycan xalçaçılıq sənəti də bu gün eyni taleyi yaşayır. Xalçanın ilmələrində tarix, coğrafiya, təbiət, ailə və xalqın estetik dünyagörüşü əks olunur. Azərbaycan xalçaçılığının UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısında yer alması bu sənətin beynəlxalq səviyyədə tanınması baxımından əhəmiyyətlidir. Amma əsl dəyər xalçanın dünya siyahısında adının çəkilməsi deyil, onun ecazkar naxışlarla toxunmasının davam etməsidir.

Eləcə də kəlağayı sənəti, aşıq yaradıcılığı, tar ifaçılığı, Novruz ənənələri və digər milli dəyərlərimiz bu mənzərənin müxtəlif rəngləridir. 2014-cü ildə kəlağayı sənəti və simvolizminin UNESCO-nun Reprezentativ Siyahısına daxil edilməsi Azərbaycan qadınının zövqünü, sənətkarlıq ənənələrini və milli ornament dünyasını beynəlxalq mədəniyyət məkanında tanıdan mühüm hadisə idi.

Azərbaycanın mədəni irsinin dünyaya tanıdılması yalnız UNESCO ilə də məhdudlaşmır. Bu, sərgilərdən konsertlərə, festivallardan nəşrlərə, beynəlxalq mədəniyyət layihələrindən elmi və yaradıcı əməkdaşlığa qədər geniş bir mədəni diplomatiya prosesidir. Bu baxımdan Mehriban xanım Əliyevanın fəaliyyəti xüsusi məna daşıyır.

2020-ci il 44 günlük Vətən müharibəsindən sonra Azərbaycanın mədəni irsinin qorunması məsələsi də yeni məzmun qazandı. İşğaldan azad edilmiş ərazilərdə tarixi və dini-mədəni irsin vəziyyətinin araşdırılması, dağıdılmış abidələrin bərpası və milli-mədəni yaddaşın yenidən canlandırılması ən mühüm vəzifələrdən oldu. Bu mərhələ Azərbaycanın mədəniyyət siyasətində yeni bir istiqamət açdı. Söhbət mövcud irsin qorunmasından deyil, işğal nəticəsində zərər görmüş irsin bərpasından və onun dünya ictimaiyyətinə təqdim edilməsindən də gedir. Bu mənada mədəni irs həm də tarixi yaddaşdır. Dağıdılmış bir abidənin bərpası yalnız daşların yenidən bir-birinin üstünə qoyulması yox, xalqın yaddaşına sahib çıxmaqdır. Bir sənət nümunəsinin yaşadılması isə sənətkarlığın qorunması deyil, nəsillər arasındakı mənəvi bağın yaşadılmasıdır.

Mədəni irs yalnız dövlət tədbirlərində, sərgi salonlarında və beynəlxalq siyahılarda yaşamır, eyni zamanda uşağın öyrəndiyi mahnıda, gəncin ifa etdiyi sazda, ustadın şagirdinə öyrətdiyi sənətdə, ailənin yaşatdığı Novruz adətində, nənənin nəvəsinə danışdığı yaddaşda yaşayır. Mədəni irsin əsl mənbəyi xalqın özüdür. Azərbaycan öz mədəni irsini dünyaya təqdim etməklə, əslində, özünü dünyaya tanıdır. Bu isə dünyaya verilən bir mesajdır - biz yalnız qədim tarixə malik xalq deyilik! Bizim bu gün də yaşayan, yaradan və gələcəyə ötürülən zəngin mənəvi dünyamız var.

Mehriban xanım Əliyevanın bu istiqamətdəki fəaliyyətinin əhəmiyyəti də məhz burada görünür. Bu fəaliyyətin ən mühüm nəticəsi ayrı-ayrı mədəniyyət nümunələrinin beynəlxalq səviyyədə tanınmasından daha böyükdür. Əslində bu, Azərbaycan mədəniyyət incilərinin dünya mədəniyyətinin ayrılmaz və özünəməxsus hissəsi kimi təqdim olunması deməkdir. Və nə qədər muğamımız səslənir, sazımız danışır, xalçamız ilmə-ilmə toxunur, kəlağayımız öz rənglərini qoruyur, bahar tonqalları yandırılır, ustad sənətkar öz sənətini gənc nəslə ötürür, deməli, Azərbaycan öz mədəni kimliyini yaşadır. Kimliyini qoruyan xalq isə dünyaya daha inamla açılır.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Azərbaycanın ilk qadın Xalq şairi

**Özünün yazdığı kimi, od üstündə doğulmuşdu. Ölümlər, sürgünlər, qadağalar, milli qırğınlar və milli əsarət görmüş nəslin nümayəndəsi idi Mirvarid Dilbazi. Azərbaycan Xalq Cümhuriyyətinin qurulduğu günlərin sevinci, süqutunun kədəri, kəndlərinə qəfil erməni hücumları, Qırmızı ordunun işğalı, sinfi mübarizə adı altında həbslər, repressiya tufanı bu nəsildən də yan ötməmiş, onun zərif nümayəndəsi Mirvaridin yaddaşında dərin izlər buraxmışdı.**



Babası, dayıları Qazaxıstanda, Türkiyədə torpağa tapşırılmış, anası, nənəsi Bakıda dəfn olunmuşdu. Beləliklə, böyük bir ailənin üzvlərindən heç birinə mənsub olduqları Dilbazilər nəslinin doğma kəndində - Qazaxın Xanlıqlar (indiki Musaköy) kəndində öz ulu babalarının yatdıqları torpaqda uyumaq qismət olmadı.

AZƏRTAC xəbər verir ki, avqustun 19-u Xalq şairi Mirvarid Dilbazinin anadan olmasının 114-cü ildönümü tamam olur.

Mirvarid Dilbazinin "Qadınların hürriyyəti" adlı ilk şeiri 1927-ci, "Bizim səsimiz" adlı ilk kitabı 1934-cü ildə nəşr edilib. Şairin "İlk bahar", "Məhəbbət bizimlə qoşa doğulur", "Həyat lövhələri", "Xatirələr aləmində", "Bənövşələr üşüyəndə", "Ana qanadı", "Yasəmən fəsli", "Dağ çiçəyi", üç cilddə "Seçilmiş əsərləri", "Qar çiçəkləri", "Durnalar ötüşəndə", uşaqlar üçün "Nağıllar", "Kiçik dostlarıma", "Gülbahar", "Yaz gəlir", "Lalənin ağacları", "Abşeron bağlarında" və digər kitabları çapdan çıxıb.

Mirvarid Dilbazi ədəbi irsinə lirik, ictimai məzmunlu şeirlər, "Məhsəti", "Əlcəzairli qız", "Partizan Aliyə", "Avey dağla söhbət" və digər poemaları, "Xocalı fəryadı", "Məhsəti" pyesləri daxildir. Xaqani Şirvani, Nizami Gəncəvi, Əlişir Nəvai, Aleksandr Puşkin, Taras Şevçenko, Nikolay Tixonov, Samuil Marşak və başqa şairlərin əsərlərini, Evripidin "İppolit" faciəsini dilimizə tərcümə edib. Əsərləri xarici dillərə tərcümə olunub. Bəstəkarlarımız Mirvarid Dilbazinin sözlərinə mahnılar yazıblar. Ağabacı Rzayevanın onun "Çoban Qara", "Evimizə gəlin gəlir", "Anam yadıma düşdü", "Lay lay", "Azərbaycan elləri" şeirlərinə yazdığı mahnılar bu gün də sevilə-sevilə dinlənilir.

Mirvarid Dilbazi Azərbaycanın ictimai-siyasi həyatında XX əsrin sonlarındakı tarixi hadisələri dərindən yaşayaraq səciyyəvi lirik lövhələr yaradıb. Bu dövrdə şairin lirik "mən"i müdrik, qayğılı el anasıdır. Vətənin, xalqın taleyi ən ağrılı enişləri ilə onun varlığından keçərək şeirə çevrilir. Yurd-yuvalarından didərgin düşmüş qaçqın və köçkünlərimizə həsr etdiyi "Ağla, kamanım, ağla", "Qoymayın ağlayım məni", 20 Yanvar faciəsi ilə bağlı yazdığı "Öpün bu qanlı torpağı", "Şəhidlər qəbiristanında" və digər şeirləri bu mövzuda yazılmış çox gözəl poeziya nümunələridir.

Kədərini, sevincini kövrək misralara çevirən şair ömrünün payız çağlarında xalqımızın qələbəsini görmək arzusu ilə yazıb-yaradırdı. Ürəyində Qarabağ dərdi ilə 2001-ci il iyulun 12-də dünyadan köçən şair əbədi sənəti ilə qəlbimizdə dərin izlər qoyub.

*Öz içindən yanan bir ocağam mən,*
*Yandıqca daha gur yanacağam mən!*

- yazan Mirvarid Dilbazinin əsərləri hər zaman insanlara güc, inam verir, onları paklığa, ülvi duyğulara səsləyir.

Yaradıcılığı yüksək qiymətləndirilən Mirvarid Dilbaziyə 1979-cu ildə Azərbaycanda ilk qadın şair olaraq Xalq şairi fəxri adı verilib. O, "Şərəf nişanı", "Qırmızı əmək bayrağı", "İstiqlal" ordenləri və medallarla təltif edilib. Şairin dövlət səviyyəsində keçirilən 85 illik yubiley mərasimində Ümummilli Lider Heydər Əliyev şəxsən iştirak edib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2012-ci il 16 may tarixli sərəncamına əsasən Mirvarid Dilbazinin 100 illik yubileyi dövlət səviyyəsində qeyd olunub.

# Ağaca nəfəs verməklə xalqın səsini yaşatmaq olarmış

**Uca dağların zirvəsində məskən salan Lerik təbii gözəlliyi ilə adamın könlünü, gözünü oxşayır. Bu yerlərin insanları da havası kimi təmiz, suları kimi duru və bir də səmimi, mehriban və qonaqpərvərdirlər. Lerikə yolu düşən hər kəs yalnız bu yerlərin torpağını, təbiətini deyil, insanlarının isti münasibətini də bir ömür yaddaşına yazır.**

Lerikə səfərimizin məqsədi yalnız təbiətin gözəlliklərini seyr etməklə bitmirdi. Bu dağların qoynunda milli sənətimizi yaşadan, ağaca nəfəs, musiqi alətlərinə ruh verən Əfrəddin Şahiyevin sənətinə olan maraq gətirmişdi bizi Lerikə. Əfrəddin usta bizi həyətində qarşıladı. Ağlımızdan belə keçmirdi ki, bir azdan samovarın zümzüməsi ilə balabanın kövrək səsi bir-birinə qoşulub Lerik dağlarına yayılacaq.

Əfrəddin Şahiyev 1961-ci ildə Lerikdə dünyaya göz açıb. Onun sənət yolu ailədən başlayıb. Uşaqlıq xatirələrini yada salaraq deyir: "Gözümü açıb evimizdə musiqi səsi eşitmişəm. Atam regionda məşhur zurna-balaban ifaçısı olub. Təkcə Lerikdə yox, cənub bölgəsinin əksər toylarını atam edərdi. O zaman mən də klarnet ifaçısı kimi atamla toylara gedərdim. Amma hiss edirdim ki, musiqi aləti kimi zurnanın imkanları daha genişdir. Beləcə, klarneti zurna-balabanla əvəz etməli oldum".

Əfrəddinin atası Xanış kişini Azərbaycanda tanımayan az adam olar. Çoban Xanış Ulu Öndəri özünə dost bilərdi. Amma sən demə, o, həm də tanınan zurna ustası və ifaçısı imiş. Atasından qalan dəzgahlar bu gün də Əfrəddin ustanın emalatxanasında onun sənət yolunun canlı şahidləridir. Əfrəddin deyir ki, özü də uşaqlıqdan musiqi aləti hazırlamağa maraq göstərib. İlk əl işinin uğurlu alınması onun həyatında dönüş yaradıb. "Düzəltdiyim zurna Bakıda sənət xiridarlarının əlinə düşmüşdü. İşimi bəyənən sənətkarlar buraya gəlib mənə xeyir-dua verdilər", - deyə Əfrəddin usta bildirir. Bu əhvalatdan sonra Əfrəddin ifaçılıqdan çox əsasən sənətkarlıqla məşğul olmağa başlayıb.

Bu gün onun emalatxanasına daxil olanda keçmişlə bu günün yanaşı yaşadığını görürsən. Sahibinin əlinin toxunuşunu gözləyən zurna, balaban, ney və tütəklər, hazırlanmaq üçün seçilmiş ərik ağacları, ebonit materiallar, müxtəlif dəzgah və alətlər burada böyük bir sənət dünyasının mənzərəsini yaradır. Emalatxanada ağac, sadəcə, taxta parçası deyil, gələcəkdə nəfəs alacaq, danışacaq, xalqın musiqisini səsləndirəcək alətdir.

Əfrəddin ustanın sənət sevgisinin kökləri daha qədimlərə gedib çıxır. Lerikdə vaxtilə böyük sənətkar kimi tanınan Sahil Quliyev onun atasının da ustadı olub. Əfrəddin usta onu Azərbaycanın misilsiz zurna ustalarından biri kimi xatırlayır. Atasından qalan, 100 ildən artıq yaşı olduğu deyilən zurnanı isə bu sənət məktəbinin canlı yadigarı kimi indi də qoruyur.

Bir əsrdən artıq yaşı olan həmin zurna ilə Əfrəddin ustanın hazırladığı yeni zurnalar arasında görünməz bir bağ var. Biri keçmişdən xəbər verir, digərləri isə gələcəkdən. Usta özü də bu sənətin yaşamasını istəyir. Çünki onun üçün hazırladığı hər zurna, hər balaban ululardan qalan sənətin davamıdır.

Əfrəddin usta deyir ki, musiqi aləti hazırlamaq həm ustalıq, həm də zərgər dəqiqliyi tələb edir. Zurna və balaban əsasən cır ərik ağacından hazırlanır. Amma hər ərik ağacı da alət üçün yararlı deyil. Ağacın kəsilməsinin də öz vaxtı var. Ağac dekabr-yanvar aylarında, suyu çəkiləndə kəsilməli, gövdəsi sağlam və diametri kifayət qədər böyük olmalıdır. "Budaqdan alət hazırlamazlar. Ağacın əyilməsi, partlaması var. İçərisində gözlə görünməyən kiçik bir çat olsa, həmin alət düzgün səs verməz. Ona görə ağacı da tanımaq lazımdır".



Ustanın bu sözlərində sənətin uzun illərin təcrübəsi ilə yoğrulduğu hiss olunur. O, hazırladığı alətin hər detalına özü nəzarət edir. Klarnetin üst hissəsini gümüşdən hazırlayır, materialı kəsir, qəlibə salır. Cüzi bir səhv alətin səsinə təsir göstərə bilər. Balabanlarda müəyyən dəyişikliklər edən usta deyir ki, bəzi alətlərə əlavə pərdələr qoyur. Klarneti ebonitdən, zurna və balabanı isə uyğun ərik ağacından hazırlayır. Keçmişdə zurnaçılar aləti tez-tez sulamalı olurdular. Əfrəddin usta bu problemi həll edib. Zurnanın əsas hissəsini birləşdirən keçidi ebonitdən hazırlamaqla ağacın qurumasından yaranan boşluğu aradan qaldırıb.

Bu zəhmətin nəticəsi isə yalnız Lerikdə eşidilmir. Əfrəddin usta fəxrlə deyir: "Xoşbəxt sənətkaram ki, mənim düzəltdiyim zurnanın, balabanın səsi xarici ölkələrdən gəlir. Fransadan, Amerikadan, İsraildən, İngiltərədən, Almaniyadan, Rusiyadan, Qazaxıstandan, Özbəkistandan və başqa yerlərdən sifarişlər almışam. Telefonumun yaddaşında düzəltdiyim alətlərin müxtəlif ölkələrdən olan ifaçıların səsləndirdiyi musiqilər var".

Bir fransız ifaçının qara zurnada ifasını dinlədərkən Əfrəddin usta həmin alətin səsinin necə gözəl səsləndiyini göstərir. Sonra isə fikrini bizimlə bölüşür: "Zurnadır, balabandır - bunlar təmiz Azərbaycan xalqına aid musiqi alətləridir. Ermənilər bizim balabanı özlərinə çıxarmaq istəyirlər. Hələ özlərinə yaraşan bir ad da uydurublar - duduk. Bu, qəti belə deyil. Balaban Azərbaycan xalqına aid musiqi alətidir. Nə qədər erməni balaban ifaçısı varsa, araşdırsan onun Cənubi Qafqazla bağlılığı var. Yəni bizdə görüb, götürüblər".

Söhbətin bu məqamında ustanın hazırladığı yastı balabanı əlinə alması və "Sarı gəlin"i səsləndirməsi söhbətin başqa bir məcraya keçməsinə səbəb olur. Balabanın kövrək səsi emalatxananın divarlarından süzülüb Lerik dağlarına yayılır. Alət ustanın əlində sanki dil açıb danışırdı. "Sənətkar gərək ifa etdiyi alətin dilini bilsin. Mən düzəltdiyim alətlərin dilini bilirəm. "Sarı gəlin"i də təsadüfən ifa etmədim. Ermənilər həm bizim "Sarı gəlin"ə, həm də balabanımıza iddia edirlər. Gəlsin bir erməni Lerikdən bir addım kənara çıxmayan Əfrəddin kimi bu aləti danışdırsın görüm necə danışdırır?! Bunu bacarmaq üçün adamın canında və musiqi alətində, eləcə də müsiqidə milli ruh olmalıdır. İfa ilə sənətkarlıq bir-birindən ayrılmır. Aləti hazırlayan usta onun səsini duymalı, ifa edən sənətkar isə həmin səsin mahiyyətini bilməlidir" - deyə usta bildirir.

Bu gün Əfrəddin ustanın hazırladığı alətlərə Azərbaycanın müxtəlif bölgələrində də böyük maraq var. Qazax, Tovuz, Ağstafa və başqa rayonlardan ustad vaxtaşırı sifarişlər alır. Bəzən sifarişləri vaxtında çatdırmaq üçün gecə-gündüz işləməli olur. Amma onun ən böyük narahatlığı sənətinin davamçısının yoxluğudur.

- Çox təəssüf edirəm ki, bu sənəti yaşadan ustalar daha yoxdur. Nə qədər qohum-qardaşa dedim ki, bu dədə-baba sənətini yaşadan bir yetirməm olsun. Vallah, çörəkli sənətdir, amma gənclərdən gələn olmadı", - deyə usta bildirir. Və əlavə edir ki, bir vaxtlar qardaşı oğullarından birini bu sənətə yönəltməyə çalışıb, hətta onu Lənkəran musiqi məktəbinin balaban ixtisasına qoyublar. Ancaq o da sənətin ardınca getməyib. Beləcə, bir sənətin bütün ağırlığı bu gün bir ustanın çiyinlərində qalır.

Əfrəddin Şahiyevin sənəti yalnız ağacdan musiqi aləti hazırlamaqla məhdudlaşmır. Onun üçün zurna və balaban milli yaddaşın, mənəvi ruhun ifadəsidir.

- Zurnanın, balabanın səsi mənim üçün millətimin harayı, Azərbaycan milli-mənəvi ruhunun səsidir, qəhrəmanlığa çağırışdır. Bu səsdə xalqımızın tarixi yaddaşı yaşayır. İnsan gərək Vətəni qədər də tarixini sevə", - deyə o bildirir.

Birinci Qarabağ müharibəsində qardaşı Camal, İkinci Qarabağ savaşında isə qardaşı Tahirin iki oğlu - Altay və Elgün şəhid olublar. Bu da Əfrəddin ustanın sözləridir: "Zurna mənim üçün həm də bir silahdır. Onun səsi döyüşə, qəhrəmanlığa çağırışdır. Mənə görə zurnanın səsində Vətən sevgisi, şəhidlərin xatirəsi, xalqın mübarizə ruhu var. 2020-ci il sentyabrın 27-si Vətən müharibəsi başlayan gün Prezidentin xalqa müraciətini dinləyib zurnanı aldım əlimə, başladım "Cəngi"çala-çala şəhərə tərəf getməyə. İnanın, özümü döyüş meydanında hiss edirdim. "Cəngi"nin səsi dağlarda əks-səda verirdi. İgidlərimizi döyüşə çağırırdım. Özümdən asılı olmayan hiss idi bu".

Əfrəddin Şahiyev üç övlad atasıdır. Qızı və bir oğlu Bakıda riyaziyyat müəllimi işləyirlər. Digər oğlu isə rayonda tanınmış baytardır.

Bu gün Lerikin sakit guşəsində, müxtəlif dəzgahların arasında bir usta ağacı cilalayır, deşir, ölçür və nəhayət, ona nəfəs verir. Bir azdan həmin alət sahibinin əlinə keçəcək və danışmağa başlayacaq. Samovarın zümzüməsi ilə qoşalaşan o səs Lerikin dağlarından keçib uzaqlara gedəcək. Əsas məsələ isə budur ki, bu səs heç bir zaman kəsilməsin. Çünki milli musiqi alətlərini yaşadan sənətkar yaşadıqca, o alətlərin səsində xalqın yaddaşı da yaşayacaq. Əfrəddin usta məhz bu yaddaşı yaşadanlardandır.

***E.QƏNİYEV,***
***"Azərbaycan"***

## "Qorqud" folklor ansamblı IX Böyük Hun-Türk Qurultayında ölkəmizi təmsil edib

**Macarıstanın "Turan" Fondunun təşkilatçılığı və TÜRKSOY-un dəstəyi ilə Macarıstanın Buqaç şəhərində IX Böyük Hun-Türk Qurultayı keçirilib.**



AZƏRTAC xəbər verir ki, qurultayın açılış mərasimində TÜRKSOY-un Baş katibi Sultan Raev, Türk Dövlətləri Təşkilatının baş katibi Kubanıçbek Ömüralıyev, Türk Akademiyasının prezidenti akademik Şahin Mustafayev, Budapeştdəki diplomatik korpusun təmsilçiləri və türk dünyasından incəsənət nümayəndələri, elm adamları və folklor biliciləri iştirak ediblər.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi ilə tədbirdə ölkəmizi "Qorqud" folklor ansamblı təmsil edib. Ansamblın bədii rəhbəri Əməkdar artist Nuriyyə Hüseynova, solist Çilənay Hüseynova bəstəkar və xalq mahnılarımızı səsləndiriblər. Onları Əməkdar artistlər Təranə Əliyeva (qanun), Fəzilə Rəhimova (çəng), eləcə də Rüstəm Müslümov (tar), Ceyhun Muradov (kamança) və Əkbər Məmmədov (nağara) müşayiət ediblər.

Üç gün davam edən etnofestival çərçivəsində konsert proqramları, süvari paradları, köçəri həyat və qədim döyüş sənəti ilə bağlı təqdimatlar, əl sənətləri sərgiləri, həmçinin arxeologiya və antropologiya sahələri üzrə elmi toplantılar təşkil olunub.

Qeyd edək ki, iki ildən bir keçirilən Böyük Hun-Türk Qurultayı türk xalqları və onların diaspor təşkilatları arasındakı birliyin daha da möhkəmləndirilməsi məqsədi daşıyır.

## "Azərbaycanda qonaqpərvər tamaşaçılar və Bakının gözəlliyi bizi heyran etdi"

**Azərbaycanın Qəbələ şəhəri bu yaxınlarda bir neçə gün ərzində müxtəlif ölkələrdən sənətçiləri bir araya gətirən böyük bir mədəni tədbirə evsahibliyi etdi. İştirakçılar arasında "Flueraş" xalq mahnı və rəqs ansamblının nümayəndələri də var idi.**

AZƏRTAC xəbər verir ki, Moldova ansamblının baş xoreoqrafı Yuriy Bivol bu genişmiqyaslı beynəlxalq musiqi festivalı ilə bağlı təəssüratlarını Moldovanın nüfuzlu "Noi.md" xəbər portal ilə bölüşüb.

O məqalədə qeyd edir ki, Qəbələ Beynəlxalq Musiqi Festivalı 2009-cu ildə təsis edilib və Heydər Əliyev Fondu tərəfindən təşkil edilən klassik musiqi və mədəniyyətə həsr olunmuş tədbirdir. Festival hər yay məşhur sənətçiləri, simfonik orkestrləri və beynəlxalq ansamblları mənzərəli təbii mühitdə bir araya gətirir.

Artıq on beşinci dəfə təşkil olunan builki festival təkcə Azərbaycan sənətçilərini deyil, həm də Avstriya, Niderland, Rusiya, Özbəkistan, Vyetnam, Almaniya və Moldova Respublikasından qonaqları bir araya gətirib.

"Bizi çox səmimi qarşılayan Azərbaycan tamaşaçıları qarşısında rəqs etmək böyük sevinc və şərəf idi. Əvvəlcə tamaşaçılar bir qədər təmkinli idilər, amma çıxışımızın sonunda onların reaksiyası çox emosional oldu, onlar coşğun alqışladılar və hətta səhnənin qarşısında rəqqaslarımıza qoşuldular. Bu, inanılmaz bir enerji mübadiləsi idi!", - deyə Yuriy Bivol qeyd edib.

Yuriy Bivol həmçinin festivalın onu təkcə çıxışları ilə deyil, həm də atmosferi və mənzərəli məkanı ilə heyran etdiyini söyləyib.



# "XTQ qəhrəmanlarının irsi" Masallıda

**Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi, Xüsusi Təyinatlıların Qaziləri, Şəhid Ailələri və Veteranları İctimai Birliyinin təşkilatçılığı ilə həyata keçirilən "XTQ qəhrəmanlarının irsi" düşərgəsi layihəsinin iştirakçıları Masallıya səfər ediblər.**

Öncə iştirakçılar Musaküçə kəndində həsirçilik və Heydər Əliyev Mərkəzinin qarşısında dulusçuluq fəaliyyəti ilə bağlı görülən işlər və istehsal prosesi ilə tanış olublar. Sonra Heydər Əliyev Mərkəzində peşəkar uşaq psixoloqu tərəfindən uşaqlar üçün maraqlı və interaktiv təlimlər keçirilib.

Rayon icra hakimiyyətinin başçısı Araz Əhmədovla görüşdə xüsusi təyinatlıların keçdiyi qəhrəmanlıq yolundan, Vətən uğrunda göstərdikləri şücaət və fədakarlıqdan danışılıb. Bildirilib ki, şəhid və qəhrəmanlarımızın həyat yolu gənc nəsil üçün əvəzsiz örnəkdir.

Səfərdə 35 şəhid övladı və 27 qazi övladı olmaqla ümumilikdə 62 nəfər iştirak edib. Layihə çərçivəsində keçirilən tədbirlər uşaqlarda Vətənə bağlılıq, milli-mənəvi dəyərlərə hörmət, şəhid və qəhrəmanlarımızın irsinə sədaqət hisslərinin gücləndirilməsi baxımından əhəmiyyətli olub.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


## BEYNƏLXALQ HƏYAT

# Yevgeni Xmara Ukraynanın yeni müdafiə naziri oldu

## Andriy Sibiqanın xarici işlər naziri vəzifəsinə namizədliyi də təsdiqlənib

**Ali Rada üzvləri Ukrayna Təhlükəsizlik Xidmətinin keçmiş rəhbəri Yevgeni Xmaranı ölkənin yeni müdafiə naziri təsdiq ediblər. Ukrayna Prezidenti Volodimir Zelenski iyulun ortalarında müdafiə naziri Mixaylo Fyodorov da daxil olmaqla bütün hökumətin vəzifədən alınmasından sonra Xmaraya Müdafiə Nazirliyinin rəhbəri vəzifəsini icra etməyi tapşırmışdı.**



Parlamentin 312 üzvü Yevgeni Xmaranın müdafiə naziri təyin olunmasının lehinə, 2-si isə əleyhinə səs verib.

Ukrayna mediasının məlumatına görə, Radada çıxış edən Xmara cəbhənin gücləndirilməsini, insan kapitalının qorunmasını və müdafiə sənayesinin inkişaf etdirilməsini əsas prioritetləri arasında adlandırıb.

Ali Rada Andriy Sibiqanın Ukraynanın xarici işlər naziri vəzifəsinə namizədliyini də təsdiqləyib. Ukrayna Ali Radasının 266 üzvü A. Sibiqanın yenidən nazir təyin olunmasının lehinə səs verib.

Namizədliyi ilə bağlı səsvermədən əvvəl Radada çıxış edən A.Sibiqa ədalətli sülhü və Ukraynanın Aİ və NATO-ya qoşulmasını Ukrayna diplomatiyasının prioritetləri kimi gördüyünü bildirib: "Müharibəyə son qoymaq üçün döyüş meydanında və danışıqlar masasında gücə ehtiyacımız var. ABŞ-nin iştirakı, Avropanın fəal rolu, yeni dəstək paketləri... Müttəfiqlərimizlə mümkün qədər çox əlaqə quracağıq".

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Avropada təbii qazın qiyməti martdan bəri ən yüksək səviyyəyə çatıb

**Avropada təbii qazın qiyməti mart ayından bəri ən yüksək səviyyəyə çatıb.**



AZƏRTAC "Spiegel" nəşrinə istinadla xəbər verir ki, Niderlandın TTF habında qaz fyuçersinin qiyməti meqavat/saat üçün 64,60 avro təşkil edib. Bu, martın ortalarından bəri qeydə alınan ən yüksək göstəricidir.

Qazın bahalaşmasına Hörmüz boğazında ticarət gəmilərinə hücumlarla bağlı narahatlıqlar və Körfəz bölgəsindən tədarükünün tezliklə normallaşmasının mümkün olmaması təsir göstərir. Son iki həftədə qazın qiyməti 20 faizdən çox artıb. İran Hörmüz boğazının açılması üçün ABŞ ilə iyunun ortalarında imzalanmış çərçivə sazişinin icrasını tələb edir.

Qiymət artımı Avropada qaz anbarlarının doluluq nisbətinin ötən illə müqayisədə aşağı olduğu vaxta təsadüf edir. "Gas Infrastructure Europe"nin (GIE) məlumatına görə, Avropadakı anbarların doluluq nisbəti hazırda 61,40 faiz, Almaniyada isə 50,06 faizdir. Ötən ilin eyni dövründə bu göstəricilər müvafiq olaraq 74 və 67 faiz olub.

Almaniyanın Qaz Magistral Şəbəkəsi Operatorları Assosiasiyası (FNB Gas) bildirib ki, ölkədə noyabrın 1-dək qanunla müəyyən edilmiş qaz ehtiyatı səviyyəsinə çatmaq artıq çətin görünür. Hətta qaz anbarlarının sutkada 1,2 TVt-saat (TWh) sürətlə doldurulması belə tələb olunan göstəriciyə çatmağa kifayət etməyə bilər.

# İsrail ordusu Livanın cənubuna zərbələr endirib

**İsrail ordusu Livanın cənubundakı Əli əl-Tahir təpələrinə, həmçinin Dohat Kafr Rummanı, Deyr Saryan və Əl-Kantara bölgələrinə hava zərbələri endirib. AZƏRTAC xəbər verir ki, bu barədə xarici media məlumat yayıb.**



Hücumlar zamanı ölənlərin və yaralananların olub-olmaması barədə hələlik məlumat yoxdur.

Qeyd edək ki, İsrail ordusu bu il martın 2-dən Livana qarşı hücumlara başlayıb. Livanın Səhiyyə Nazirliyinin məlumatına görə, həmin vaxtdan indiyədək ölkədə 4346 nəfər ölüb, 12 min 301 nəfər yaralanıb. Livan hökuməti hücumlar nəticəsində ölkə daxilində didərgin düşmüş insanların sayının 1 milyonu keçdiyini açıqlayıb. Livan və İsrail arasında bu il aprelin 17-də atəşkəs elan olunub və bir neçə dəfə uzadılıb. Buna baxmayaraq, hücumlar davam edir.



# Alp dağlarında 34 il əvvəl itkin düşmüş alpinistlərin cəsədləri tapılıb

**Alp dağlarının İsveçrə ərazisindəki hissəsində 34 il əvvəl itkin düşmüş iki alpinistin cəsədləri tapılıb. AZƏRTAC "Spiegel" nəşrinə istinadla xəbər verir ki, polis onların 1992-ci ildə Vaysmies bölgəsində itkin düşən iki belçikalı olduğunu açıqlayıb.**

Cəsədlər İsveçrənin İtaliya ilə sərhədi yaxınlığındakı Trift buzlaqında bir turist tərəfindən aşkarlanıb. Tapılan cəsədlər ərazidən çıxarıldıqdan sonra aparılan DNA analizi onların 1992-ci ildə itkin düşən və həmin vaxt 39 və 41 yaşlarında olan iki nəfərə məxsus olduğunu təsdiqləyib. Alpinistlərin hansı şəraitdə öldükləri hələlik açıqlanmayıb. Onların uzun illər ərzində buzlaqda qaldığı ehtimal edilir.

Son illərdə Alp buzlaqlarının sürətlə əriməsi nəticəsində onilliklər əvvəl itkin düşmüş insanların qalıqları vaxtaşırı üzə çıxır. Ötən il Zermatt yaxınlığındakı Oberqabelhorn dağında 1994-cü ildən itkin hesab olunan bir şəxsin skeleti aşkarlanmışdı.

# Havanın temperaturu 38 dərəcəyədək artacaq

**Azərbaycanda avqustun 20-nə gözlənilən hava şəraiti açıqlanıb.**




Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraiti əsasən yağmursuz olacaq. Mülayim şimal-qərb küləyi əsəcək, gündüz arabir güclənəcək. Havanın temperaturu gecə 21-24°, gündüz 29-33° isti olacaq. Atmosfer təzyiqi 758 millimetr civə sütunu, nisbi rütubət gecə 70-75, gündüz 50-55 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz olacaq. Lakin gündüz şimal və qərb rayonlarından başlayaraq bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə arabir duman olacaq. Qərb küləyi əsəcək, gündüz bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 20-24°, gündüz 33-38° isti, dağlarda gecə 12-17°, gündüz 20-25° isti olacağı ehtimal edilir.

## İdman

# Azərbaycan taekvondoçusu Prezident Kubokunda bürünc medal qazanıb

**Azərbaycan taekvondoçusu Qaşim Maqomedov Pakistanın Lahor şəhərində keçirilən Asiya regionu üzrə 8-ci Prezident Kubokunda medal qazanıb.**




Taekvondo Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, 63 kiloqram çəki dərəcəsində mübarizə aparan idmançı bürünc mükafat əldə edib.

Eyni çəkidə çıxış edən digər taekvondoçu Fuad Məhərləmli isə yarışı medalsız başa vurub.

# İspaniyalı "Formula-1" pilotu "Uilyams"la yeni müqavilə imzalayıb

**"Formula-1" üzrə dünya çempionatında çıxış edən "Uilyams" komandası ispaniyalı pilot Karlos Saynsla yeni müqavilə imzalayıb.**



AZƏRTAC xəbər verir ki, sözləşmənin müddəti açıqlanmasa da, tərəflər arasında çoxillik razılaşmanın əldə olunduğu bildirilib.

Sayns komandanın inkişafına inandığını və "Uilyams"ı yenidən layiq olduğu mövqeyə qaytarmaq üçün əlindən gələni edəcəyini söyləyib.

Qeyd edək ki, "Uilyams" daha əvvəl Saynsın komanda yoldaşı Aleks Albonla da müqaviləni yeniləyib.

# *"Tvente"nin baş məşqçisi:* "Bizi "Qarabağ"la finala bərabər iki oyun gözləyir"

**Bizi qarşıda "Qarabağ"la finala bərabər iki oyun gözləyir. Bu komanda mənim üçün yeni rəqib deyil. "Lex"də işləyərkən Azərbaycan təmsilçisi ilə qarşılaşmışam.**



AZƏRTAC xəbər verir ki, bu sözləri Niderlandın "Tvente" klubunun baş məşqçisi Con van den Brom UEFA Konfrans Liqasının pley-off mərhələsində "Qarabağ"a qarşı keçirəcəkləri ilk oyundan əvvəl mətbuat konfransında deyib.

Mütəxəssis Ağdam klubunun son illər yüksək səviyyədə çıxış etdiyini bildirib: "Məhz bu amil "Qarabağ"ın keyfiyyətindən xəbər verir. Rəqibin heyətində fərdi bacarıqları yüksək olan xeyli sayda futbolçu var. Ehtiyatlı olmalıyıq. "Qarabağ" Cənubi Avropa və Cənubi Amerika köklərinə malik futbolçulardan qurulmuş komandadır və çox yaxşı oynayır. Topa sahib olmağa diqqət yetirir. Düşünürəm ki, bizim də şansımız var. Öz oyunumuzu göstərməliyik. Dominantlıq etməli, ev sahibi kimi oynamalıyıq. Azarkeşlərimizin də dəstəyi ilə qələbə qazanmaq istəyirik. Evdəki sərfəli nəticə gələn həftə üçün yaxşı vəziyyət yarada bilər. Ən yaxşı nəticəni əldə etmək üçün azarkeşlərimizə ehtiyacımız var".

Qeyd edək ki, avqustun 20-də keçiriləcək "Tvente" - "Qarabağ" oyunu Bakı vaxtı ilə saat 22:00-da başlayacaq.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3297
Sifariş 1067

Qiyməti 60 qəpik